QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 060 (5532) 30 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# Qüdrətli Azərbaycan naminə "İlhamla İrəli"!



4

Yeni Azərbaycan Partiyasının xüsusi virtual kampaniyası başa çatıb




14

Tural Sadıqlı - cinayətkar şəcərənin xain övladı



5

Siyavuş Novruzov: "Bu gün Azərbaycanda olan azadlıq heç bir ölkədə yoxdur"






# "Bakı xeyli sayda tarixi abidələrə malik qədim bir şəhərdir"

## *Prezident İlham Əliyev Beynəlxalq Memarlar İttifaqının nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Memarlar İttifaqının prezidenti Bakıda gördükləri inkişaf və gözəlliyin onlarda dərin təəssürat hissi yaratdığını dedi və ilk növbədə, paytaxtımızın arxitekturasını uğurla himayə etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını və təbriklərini çatdırdı. Tomas Vonier bildirdi ki, səfərin əsas məqsədi Beynəlxalq Memarlar İttifaqının Bakıda keçirilən büro iclasında iştirak etməkdir. O dedi ki, Beynəlxalq Memarlar İttifaqının bu tədbirin Bakıda təşkili ilə bağlı 134 üzv ölkə içərisindən Azərbaycanı seçməsi rəhbərlik etdiyi qurumun ölkəmizə verdiyi böyük önəmin göstəricisidir.

"Bakı çox gözəl şəhərdir", - deyən Tomas Vonier həmkarlarının ilk dəfə burada olduqlarını və gördüklərindən heyran qaldıqlarını vurğuladı. Bakı Bulvarının, şəhərdəki işıqlandırmanın xüsusi gözəlliyə malik olduğunu qeyd edən qonaq bütün bu inkişaf proseslərinin təcrübə mübadiləsi baxımından böyük maraq doğurduğunu dedi.

Dövlətimizin başçısı Bakının xeyli sayda tarixi abidələrə malik qədim bir şəhər olduğunu qeyd edərək bütün bunların milli sərvətimizin bir hissəsini təşkil etdiyini vurğuladı. Prezident İlham Əliyev bu baxımdan, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhərin böyük memarlıq dəyərinə malik olduğunu bildirərək dedi ki, əsas məqsəd bu tarixi irsi qorumaqla bərabər, yeni inşa edilən müasir binaların şəhərin tarixi hissəsi ilə həmahəngliyini təmin etməkdən ibarət idi. Bu məqsədə demək olar ki, nail olduğumuzu qeyd edən Prezident İlham Əliyev, eyni zamanda, şəhər əhalisinin daha yaxşı həyat şəraitinin və istirahətinin təmin edilməsinin də əhəmiyyətini vurğuladı, Bakıda ictimai zonaların yaradılması ilə bağlı böyük işlərin görüldüyünü dedi. Bakı Bulvarının inkişafına toxunan Prezident İlham Əliyev bu tarixi arxitektura nümunəsinin 100 il bundan öncə inşa edildiyi zaman uzunluğunun 3,5 kilometr olduğunu bildirərək hazırda bulvarın uzunluğunun 16 kilometrə çatdığını, əhalinin və qonaqların ən sevimli istirahət yerlərindən birinə çevrildiyini məmnunluqla vurğuladı.



Beynəlxalq Memarlar İttifaqının nümayəndə heyətinin ölkəmizə səfərinin önəmini qeyd edən Prezident İlham Əliyev qonaqların şəhərimizin inkişafı ilə bağlı rəylərinin öyrənilməsi, eyni zamanda, onların ölkəmizlə daha yaxından tanış olmaları üçün yaxşı imkan yaratdığını bildirdi.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonier Azərbaycan Prezidentinin birbaşa himayəsi altında Bakıda həyata keçirilən inkişaf proseslərinin bir nümunə olduğunu qeyd etdi. Quruma üzv ölkələrdən olan memarların Bakıya səfəri zamanı çox şey öyrənə biləcəklərinə ümid etdiyini deyən Tomas Vonier paytaxtımızın bu baxımdan uğurlu məkan olduğunu bildirdi. Bakının tarixi irsin müasirliklə uzlaşdırılmasının gözəl nümunəsi olduğunu deyən qonaq vurğuladı ki, əfsuslar ki, bu cür gözəlliklərə malik olan şəhər haqqında dünyada bir o qədər də geniş məlumat yoxdur. Tomas Vonier rəhbərlik etdiyi qurumun "Əhəmiyyətli memarlıq və mədəni irsə malik şəhərlərdə turizmin təsiri" adlı beynəlxalq forumunun 2019-cu ildə Bakıda keçirilməsinin bu baxımdan əhəmiyyətli olacağını qeyd etdi. Sonda xatirə şəkli çəkdirildi.

## Rəsmi xronika

Prezident İlham Əliyev akademik Əhəd Yaqubovun 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qazax Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ağstafa şəhərinin su təchizatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması Qaydaları"nın və "Daşınar əmlakın yüklülüyünün dövlət reyestrindən istifadə haqqının məbləği"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Bakıda Azərbaycan-İran biznes forumu keçirilib

***Martın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani biznes forumda iştirak ediblər.***




Əvvəlcə Neftçala Sənaye Məhəlləsində görülən işləri əks etdirən videoçarx göstərildi. Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Neftçala Sənaye Məhəlləsində yaradılan "Azərmaş" ASC və "İran Khodro" şirkətinin birgə "Xəzər" avtomobil zavodunun açılışını bildirən düyməni basdılar.

Sonra dövlət başçılarına videoçarx əsasında bu müəssisənin fəaliyyəti və istehsal prosesi barədə məlumat verildi. Daha sonra Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı görülən işlərdən bəhs edən videoçarx nümayiş olundu. Videoçarxda İran ərazisində Azərbaycan Dəmir Yollarının Astara terminalı haqqında məlumat verildi. Dövlət başçıları biznes forumda nitq söylədilər. Prezident İlham Əliyev öz nitqində diqqətə çatdırıb ki, İran-Azərbaycan dostluq, qardaşlıq əlaqələri bu gün ən yüksək zirvədədir:

"Dünən keçirdiyimiz danışıqlar, aparılan müzakirələr bunu bir daha təsdiq edir. Biz həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox fəal əməkdaşlıq edirik. Biz Prezident Ruhani ilə müntəzəm olaraq görüşürük. Son dörd il ərzində biz on bir dəfə görüş keçirmişik. Bu rəqəm özlüyündə onu göstərir ki, biz nə qədər sıx əməkdaşlıq edirik və bizim aramızda nə qədər qarşılıqlı inam var. Bu da təbiidir. Çünki bizim xalqlarımız əsrlər boyu bir yerdə yaşamış, yaratmışlar. Bizi birləşdirən ortaq tarix, mədəniyyət bugünkü əlaqələrimiz üçün əsas amildir. Bu əlaqələrin bu gün böyük sürətlə inkişaf etməsi bizi çox sevindirir.

Siyasi əlaqələr belə yüksək səviyyədə olduğu halda, əlbəttə ki, biz istənilən iqtisadi və nəqliyyat layihələrini icra edə bilərik və bunu da edirik. Biz verdiyimiz bütün tapşırıqlara şəxsən nəzarət edirik. Mən şadam ki, bu tapşırıqları yerinə yetirən hökumətlərarası komissiyanın üzvləri, bütün vəzifəli şəxslər öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Bu gün İran-Azərbaycan əlaqələri nəinki iki ölkə üçün, region üçün və deyə bilərəm ki, dünya üçün böyük əhəmiyyətə malikdir. Çünki bizim təşəbbüsümüzlə reallaşan layihələr bütün bölgə üçün, Avrasiya qitəsi üçün böyük əhəmiyyət daşıyır.

Biz dünən ticarət əlaqələrinin inkişafı ilə bağlı geniş fikir mübadiləsi apardıq. Hesab edirik ki, ticarət əlaqələrinin indiki səviyyəsi bizim əlaqələrimizin səviyyəsini əks etdirmir. Ona görə də bu biznes forumda iştirak edən iş adamlarına tövsiyəm budur ki, daha da sıx əməkdaşlıq aparmalıyıq. Ticarət dövriyyəsinin artırılması üçün praktiki addımlar atılmalıdır. Ümid edirəm ki, gələcək illərdə bizim qarşılıqlı ixracımız da artacaq. Buna nail olmaq üçün imkanlar var.

Hesab edirəm ki, biz digər sahələrdə də qarşılıqlı sərmayə qoyuluşu haqqında ciddi düşünməliyik, bunu edirik. Dünən həm məhdud tərkibdəki görüşdə, eyni zamanda, nümayəndə heyətlərinin tam tərkibi ilə keçirilmiş görüşdə bu məsələlər müzakirə olundu. Qarşılıqlı sərmayə qoyuluşu üçün əlavə istiqamətlər müəyyən edilməkdədir. Tam əminliklə deyə bilərəm ki, Şimal-Cənub nəqliyyat dəhlizi də İran və Azərbaycan tərəflərinin çox ciddi səyləri hesabına reallaşır. Biz qonşu ölkələrlə bu məsələləri daim müzakirə edirik. Son iki il ərzində görülən işlər bu yolun açılmasına əsas zəmin yaratmışdır. Kiçik təqdimatda göstərildi ki, 2016-2017-ci illərdə bu dəmir yolunun çatışmayan hissəsi Azərbaycan ərazisində inşa edildi, Astaraçay üzərində körpü salındı. Mən keçən il İranda səfərdə olarkən ilk sınaq qatarı Azərbaycandan İran ərazisinə keçdi. Bu gün isə artıq yük terminalı inşa edilir və dünən tarixi bir sənəd imzalandı. Astara-Rəşt dəmir yolunun tikintisi ilə bağlı müqavilə imzalandı. Bu müqavilə Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşmasında xüsusi rol oynayacaqdır. Beləliklə, biz qitələri birləşdirərək həm iqtisadi mənfəət götürəcəyik, - çünki bizim ərazimizdən keçən tranzit yüklər on milyon tonlarla ölçüləcək, - eyni zamanda, biz bölgədə yeni bir əməkdaşlıq formatını yaradırıq. Bunu artıq yaratmışıq, çünki biz indi nəinki ikitərəfli formatda, üçtərəfli və dördtərəfli formatlarda fəal əməkdaşlıq edirik. 2016-cı ildə Bakıda, 2017-ci ildə isə Tehranda Azərbaycan, İran, Rusiya prezidentlərinin görüşləri keçirilmişdir. Bu görüşlərin çox böyük əhəmiyyəti vardır. Görüşlərdə həm siyasi, həm iqtisadi, həm nəqliyyat, həm enerji məsələləri müzakirə edilmişdir. Hesab edirəm ki, üç ölkənin iş adamları da mövcud olan imkanlardan istifadə etməlidirlər."



Dövlət başçısı qeyd edib ki, Azərbaycan-İran-Türkiyə üçtərəfli əməkdaşlıq formatı artıq neçə ildir ki, fəaliyyət göstərir və bu yaxınlarda Bakıda yeni, dördtərəfli əməkdaşlıq formatı da reallaşıb - Azərbaycan, İran, Gürcüstan və Türkiyə. Burada həm əlbəttə ki, regional təhlükəsizlik, əməkdaşlıq, siyasi məsələlər, qarşılıqlı dəstək, eyni zamanda, iş adamları üçün geniş imkanlar açılır:

"Nəqliyyat sahəsində. İndi Astara-Rəşt dəmir yolunun tikintisi, gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyətə tam başlaması nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılmalıdır və bu iş yerlərini sahibkarlar açmalıdırlar. Ticarət dövriyyəsi əminəm ki, həm ikitərəfli, həm çoxtərəfli formatda kəskin artacaqdır. Energetika sahəsində biznes imkanları genişlənir. Dünən cənab Prezidentlə biz bunu geniş müzakirə etdik və nazirlərə də müvafiq göstərişlər verildi ki, tezliklə elektroenergetika sahəsində bizim planlarımız reallaşsın. Bu, tam realdır və əminəm ki, biz buna nail olacağıq. Böyük turist axını gözlənilir. Onsuz da hər il Azərbaycandan İrana, İrandan Azərbaycana yüz minlərlə insan səyahət edir. Dəmir yolu açılandan sonra təkcə yüklər yox, eyni zamanda, sərnişinlər də daşınacaq. Ona görə də turizm infrastrukturuna böyük investisiyalar qoyulmalıdır. Mən həm Azərbaycan, həm İran iş adamlarına müraciət edərək onları bu işlərə dəvət edirəm. Həm İranda, həm Azərbaycanda qarşılıqlı sərmayə qoyuluşu, turizm infrastrukturuna, otellərin tikintisinə, digər turizm infrastrukturuna qoyulacaq sərmayə əminəm ki, batmayacaq, əksinə yaxşı gəlir gətirəcəkdir.

Həllini gözləyən məsələlərdən biri də bank və maliyyə sektorlarındakı əməkdaşlıqdır. Dünən müvafiq göstərişlər verilmişdir. Əminəm ki, növbəti görüşə qədər bu məsələ də öz həllini tapacaq. Ticarət dövriyyəsinin artırılması, energetika sahəsində birgə fəaliyyətimiz - bu, indi növbəti dövrdə gündəlikdə duran əsas məsələlərdir.

Əlbəttə, biz çox şadıq ki, son vaxtlar İrandan olan iş adamları Azərbaycana, Azərbaycan iqtisadiyyatına daha böyük maraq göstərirlər. Biz iranlı qardaşlarımızı görməyimizə həmişə şadıq. Onlar Azərbaycanda həm investor, yeni, sərmayə qoyan, həm də podratçı kimi uğurla fəaliyyət göstərə bilərlər. Bu fəaliyyət üçün bütün imkanlar var. Əsas xalqlarımızın birliyi, dövlətlərarası münasibətlərin ən yüksək səviyyədə olması və bizim təşəbbüsümüzlə reallaşan layihələrin gələcək imkanlarıdır. Biz bölgəmizdə yeni reallıq yaradırıq. İran-Azərbaycan əlaqələri artıq regional təhlükəsizlik, sabitlik, əməkdaşlıq üçün önəmli amilə çevrilibdir."

***

Biznes forumda nitq söyləyən İran Prezidenti Həsən Ruhani xalqlarımızın dini, tarixi və adət-ənənələr baxımından olduqca bir-birinə yaxın olduğunu dedi. Ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın, həmçinin, müştərək fəaliyyətimizin bütün regionun xeyrinə olduğunu bildirdi. Həsən Ruhani ölkələrimiz arasındakı əlaqələrin bütün region və dünya üçün faydalı olduğunu deyərək bu səfərin tarixi qərarların qəbul edilməsi ilə nəticələndiyini, bütün bunların xalqlarımızın rifahına xidmət edəcəyini vurğuladı, Xəzərdə müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumun əhəmiyyətindən danışdı, Xəzər dənizinin əməkdaşlıq, təhlükəsizlik və dostluq dənizi olduğunu bildirdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq etdiyini və bir-birinin yanında olduğunu deyən Həsən Ruhani Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayaraq bu layihə ilə bağlı görülən işlərin səmərə verəcəyini əminliyini ifadə etdi. Ölkələrimiz arasında istifadə olunmayan potensialın Azərbaycan və İran prezidentlərinin şəxsi təşəbbüsləri və xidmətləri sayəsində artıq aktivləşdirildiyini deyən Həsən Ruhani müştərək iqtisadi əlaqələrin xalqlarımızın rifah halının yaxşılaşdırılmasına yönəldilməsinin vacibliyindən danışdı. Səhiyyə, əczaçılıq, bank sektoru, kənd təsərrüfatı, nəqliyyat, elektrik enerjisi, ticarət sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi. İran Prezidenti ölkələrimizin turizm potensialından istifadə edilməsinin əhəmiyyətini vurğuladı, xalqlarımız arasında gediş-gəlişin intensivləşdirilməsi, mədəniyyət sahəsində əlaqələrin gücləndirilməsinin vacibliyini bildirdi. "Azərbaycanın təhlükəsizliyi bizim təhlükəsizliyimiz, Azərbaycanın inkişafı bizim inkişafımızdır" deyən Həsən Ruhani iş adamlarına müraciət edərək onları qarşılıqlı layihələrin icrasında fəal olmağa çağırdı.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani çay süfrəsi arxasında söhbət etdilər.

# Yeni Azərbaycan Partiyasının xüsusi virtual kampaniyası başa çatıb




Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizəd cənab İlham Əliyevin təbliğatı məqsədilə xüsusi virtual kampaniya keçirilib. 1150 nəfərin qoşulduğu kampaniya qısa müddətdə tamamlanıb. Cəmiyyətin müxtəlif təbəqələrini, fərqli peşələri və yaş qruplarını təmsil edən insanlar kampaniyaya qoşulub, öz şəkillərinihttp://aprel2018.biz/ yükləməklə cənab İlham Əliyevə dəstəklərini ifadə ediblər.

Hər bir şəxs həmçinin cənab İlham Əliyevi niyə dəstəkləməsinin səbəbini də saytda qeyd edib və bu məlumatları sosial şəbəkələrdə paylaşıb. Kampaniyaya qoşulan bütün şəxslərin şəkilləri və fikirləriləhttp://aprel2018.biz/ saytında tanış olmaq olar. Kampaniya çərçivəsində tədbirlər nəzərdə tutulur.

# "Xocalı dərsi" filminin təqdimatı olub




Martın 29-da Beynəlxalq Mətbuat Mərkəzində "ARB Aran" və "Qulp Studio"nun Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun dəstəyi ilə çəkdiyi "Xocalı dərsi" sənədli filminin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, filmin məsləhətçisi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, ssenari müəllifi və rejissoru əməkdar jurnalist Mübariz Əsgərovdur. Ekran əsərində Əli Həsənovun "Xocalı soyqırımı: səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması" kitabındakı faktlardan istifadə olunub.

Qırx beş dəqiqəlik filmdə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarlarının dinc azərbaycanlılara qarşı Xocalı şəhərində həyata keçirdiyi soyqırımının dünya mətbuatında necə işıqlandırıldığı göstərilir, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası çərçivəsində aparılan təbliğat işləri və nəticədə bir çox ölkələrin bu soyqırımını tanıması haqqında ətraflı məlumat verilir. Bildirilir ki, məhz bu tədbirlərdən sonra Ankara, Berlin, Sarayevo, Haaqa, Mexiko, İzmir, İzmit, Kocaeli, Sakarya, Uşak şəhərlərində Xocalı faciəsi qurbanlarının xatirəsinə abidələr qoyulub. Xocalı soyqırımı indiyədək Meksika, Pakistan, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, İordaniya, Panama, Peru, Honduras, Qvatemala, Sudan, Sloveniya, İndoneziya, Paraqvay, Cibuti, Şotlandiya, həmçinin ABŞ-ın 24 ştatı tərəfindən tanınıb və pislənilib.

Filmdə erməni işğalçılarının Xocalıya hücum etdiyi gecə dörd gün meşədə gizlənən bir ailənin çəkdiyi əzablardan söhbət açılır. Hadisənin canlı şahidi olan Xocalı sakini Sənəm Abdullayeva o dəhşətləri xatırlayaraq dinc əhalinin başına gətirilən müsibətlərdən danışır, anası, atası və 16 yaşlı kiçik bacısının meşədə öldükləri deyir. Filmin nümayişindən sonra çıxış edənlər bu ekran əsərinin önəmindən danışıblar.

# Dini Komitə konfrans keçirib



Mart ayının 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun birgə təşkilatçılığı ilə "Azərbaycanın multikultural mühitinə təhdidlər: erməni vandalizmi və soyqırımı siyasəti - son 100 il" adlı konfrans keçirilib. SİA-nın məlumatına görə, tədbirdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, millət vəkili Yaqub Mahmudov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, millət vəkili Elman Nəsirov, DQİDK və AMEA-nın məsul şəxsləri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Konfransda vurğulanıb ki, tədbirin keçirilməsində əsas məqsəd Ermənistanın Azərbaycana təcavüzünün tarixi və mövcud durumunun təhlili, ölkəmizin multikultural mühitinə təhdidlər, eləcə də bu sahədə qarşıda duran vəzifələrin müzakirəsidir. Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair" Tədbirlər Planına uyğun olaraq keçirilib.

# Azad və Demokratik Seçkilər uğrunda Vətəndaş Təşəbbüsü prezident seçkilərinin müşahidəsi ilə bağlı aralıq hesabatını təqdim edib

*Azərbaycanda beynəlxalq standartlara uyğun demokratik və ədalətli seçkilərin keçirilməsi üçün lazımi şərait mövcuddur*



***Bolqarıstanın Azad və Demokratik Seçkilər Uğrunda Vətəndaş Təşəbbüsü (GİSDİ) aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərinin müşahidəsi ilə bağlı aralıq hesabatını martın 29-da təqdim edib.***

AZƏRTAC xəbər verir ki, hesabat siyasət, media, seçki, hüquq və vətəndaş cəmiyyəti ekspertlərindən ibarət uzunmüddətli müşahidəçilər missiyasının müşahidə və araşdırmaları nəticəsində hazırlanıb. Aralıq hesabata ekspertlərin aşağıdakı istiqamətlərdə müşahidələri daxil edilib: Makrosiyasi şərait və sistem; Azərbaycanda seçkiqabağı vəziyyət; Hüquqi çərçivə və seçki administrasiyası; Seçki siyahıları və seçicilərin qeydiyyatı; Namizədlərin irəli sürülməsi və qeydiyyatı; Seçki kampaniyası;

Seçki prosesində KİV; Şikayət və müraciətlər; Seçki günü seçkilərin müşahidəsi və s.

GİSDİ-nin analitiki Omurtaq Petkov bildirib ki, təşkilatın uzunmüddətli müşahidə missiyasının ekspertlərinin müşahidə və araşdırmalarında müəyyən edilib ki, azad və demokratik seçkilərin keçirilməsi baxımından ölkədəki makrosiyasi mühit münbitdir. Ölkədə seçkiqabağı mühit sabitdir, elektoratın öz seçimini azad ifadə etməsi, ədalətli və demokratik seçkilərin təşkili baxımından heç bir təhlükə yoxdur. Azərbaycan Respublikasında seçki prosesini tənzimləyən hüquqi sənədlərin təhlili onu deməyə əsas verir ki, ölkədə demokratik seçkilər keçirməyə tam yararlı, beynəlxalq standartlara uyğun hüquqi çərçivə mövcuddur. Seçki administrasiyasının işinin müşahidəsi ümumilikdə onun işinin müsbət qiymətləndirilməsinə imkan yaradır. Seçici siyahıları ilə iş daim aparılır, onlar yenilənir və dəqiqləşdirilir. Namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesini ümumilikdə müsbət qiymətləndirmək olar. KİV-in monitorinqi göstərir ki, namizədlərdən biri, daha doğrusu, fəaliyyətdə olan prezidentə KİV-də daha çox yer ayrılır. Lakin materialların kontent-təhlili göstərdi ki, bu bərabərsizlik onun seçki kampaniyasının deyil, prezident kimi fəaliyyətinin işıqlandırılması nəticəsində baş verib. Bu günə kimi aparılan monitorinq zamanı seçki qanunvericiliyinin ciddi pozulması və ya namizədlər üçün qeyri-bərabər şəraitə dair faktlara rast gəlinməyib. Azad toplaşma hüququ təmin olunur. Azad və Demokratik Seçkilər uğrunda Vətəndaş Təşəbbüsünün ekspertləri hesab edirlər ki, seçkiqabağı şərait və qanunverici baza ədalətlidir və demokratik seçkilərin keçirilməsini təmin edir.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək Azad və Demokratik Seçkilər uğrunda Vətəndaş Təşəbbüsü bəyan edir ki, bu gün Azərbaycanda beynəlxalq standartlara uyğun demokratik və ədalətli seçkilərin keçirilməsi üçün lazımi şərait mövcuddur.

Müşahidə missiyasının rəhbəri Mixail Mirçev təmsil etdikləri təşkilat haqqında məlumat verib. O deyib ki, Azad və Demokratik Seçkilər uğrunda Vətəndaş Təşəbbüsü seçki müşahidəsi sahəsində Bolqarıstanın ən qocaman QHT-sidir. Təsis edildiyi 1990-cı ildən bəri Bolqarıstanda müşahidə missiyalarının koordinasiyasını və təşkilini aparır. Təşkilat Bolqarıstanda ilk demokratik seçkiləri müşahidə edib və bu günə qədər milli (prezident və parlament seçkiləri) və çoxsaylı yerli seçkilərdə 20-dən artıq uğurlu yerli seçki müşahidə missiyası həyata keçirib. Bir sıra beynəlxalq seçki müşahidə missiyalarında da iştirak edən GİSDİ 2003-cü ildən bəri Azərbaycanda seçkiləri müşahidə edib.

Azad və demokratik seçkilərlə bağlı beynəlxalq öhdəlik və standartlara, eləcə də milli qanunvericiliyə tam uyğun olan GİSDİ ədalətli, şəffaf seçkiləri müdafiə edir. O, vətəndaş təşkilatı olaraq, seçkiləri keçirən ölkədə xalqın mənfəəti, eləcə də beynəlxalq ictimaiyyətin mənfəəti naminə çalışır.

GİSDİ aşağıdakı sahələr üzrə öz təsdiqini tapmış səriştəyə malikdir: Seçki məntəqəsində müşahidə - açılış, səsvermə, bağlanış, səslərin hesablanması; Seçici siyahısının və seçici qeydiyyatının tamlığı və dəqiqliyinin müşahidəsi və təhlili; Seçki kampaniyasında medianın monitorinqi; "Exit-poll və cəld hesablama; Seçki qanunvericiliyinin və onun təcrübi icrasının təkmilləşdirilməsi; Seçki müşahidəsi üzrə metodologiya və alətlər; Seçicilərin maariflənməsi və müşahidəçilərin treninqi.

# Müdafiə Nazirliyi: "Azərbaycanın əldə etdiyi silahların keyfiyyətsiz olması barədə yayılan şayiələr təxribatdır"



Azərbaycanın əldə etdiyi silahların keyfiyyətsiz olması barədə yayılan şayiələr təxribatdır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, son günlər xarici və yerli kütləvi informasiya vasitələrində Azərbaycanın Rusiyadan əldə etdiyi silahların yararsız olması ilə bağlı müxtəlif şayiələr yayılıb. Nazirlik rəsmi olaraq bildirir ki, bu kimi xəbərlər həqiqətə uyğun deyil və onların yayılması təxribat xarakteri daşıyır.

"Azərbaycan müəyyən istehsalçı ölkələrdən müxtəlif növ silahların alınması və əldə edilməsinə xüsusi diqqət yetirir. İşğal olunmuş ərazilərimizin azad edilməsi məqsədilə biz döyüş potensialımızın artırılması üçün lazım olan ən yaxşı, keyfiyyətli və effektiv hərbi vasitələri diqqətlə seçərək əldə edirik. Azərbaycan Ordusunun silahlanmasına qəbul edilən Rusiya istehsalı olan yeni silahlar müasir silah sistemlərinin yüksək tələblərinə cavab verir, eləcə də qoşunlarımızın, xüsusilə müdafiənin ön xəttində döyüş tapşırığı yerinə yetirən bölmələrimizin manevr və atəş imkanlarını xeyli artırır", - deyə nazirliyin məlumatında qeyd edilir.

# Siyavuş Novruzov: "Bu gün Azərbaycanda olan azadlıq heç bir ölkədə yoxdur"

*Yeni Azərbaycan Partiyasından (YAP) prezidentliyə namizəd Cənab İlham Əliyevin səlahiyyətli nümayəndəsi, YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzovun SİA-ya müsahibəsi:*

**- Siyavuş müəllim, Azərbaycanda aprelin 11-də növbəti prezident seçkiləri keçiriləcək. Seçki prosesinə start veriləndən indiyə qədər baş verənləri nəzərdən keçirsək, Azərbaycanda seçki mühitini necə dəyərləndirmək olar?**



- Azərbaycanda seçki mühiti seçkilərin tam keçirilməsi şərtlərinə cavab verən bir mühitdir. Əgər biz birinci növbədə qanunun aliliyini götürsək görərik ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsi var və bu, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun şəkildə formalaşıb. Azərbaycan Respublikası Seçki Məcəlləsinə əsasən, indiyədək Azərbaycanda xeyli sayda seçkilər (prezident, parlament, bələdiyyə, referendum və s.) keçirilib. O baxımdan da aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri qanun çərçivəsində, qanunun özündə ehtiva olunur. Digər bir tərəfdən Azərbaycanda stabil ictimai-siyasi seçki mühiti var. Təbii ki, bu da imkan verir ki, hər bir prezidentliyə namizəd bərabər şəkildə özünün təbliğat-təşviqat kampaniyasını qursun və seçki prosesini aparsın. Seçki Məcəlləsinə uyğun olaraq Azərbaycanda prezident seçkilərində namizədliyinin irəli sürülməsi prosesi, dünya ölkələrinə nisbətdə götürəndə, ən asan forması məhz Azərbaycandadır. Yeni yaşı 18 tamam olan, ali təhsilli, 10 il Azərbaycanın ərazisində daimi yaşayan istənilən Azərbaycan vətəndaşı namizədliyini irəli sürə bilər.

Namizədliyin irəli sürülməsinin 3 forması var: özü-öz təşəbbüsü ilə, seçicilərin təşəbbüs qrupu vasitəsilə və siyasi partiya, siyasi partiya bloku tərəfindən. Yəni hərtərəfli bütün qurumlar üçün şərait yaradılıb ki, əgər bu seçkidə iştirak etmək istəyirsə namizəd irəli sürsün və proqramını vətəndaşlara, seçicilərə çatdırsın. Bu baxımdan da Azərbaycanda olan ictimai-siyasi sabitlik, demokratik inkişaf, insan hüquq və azadlıqlarının qorunması, mətbuat, internet azadlığı və s. hər bir şəxsin özünün tam şəkildə cəmiyyətə təqdim etməsinə imkan yaradır. O baxımdan da bu seçkilərdə, bildiyiniz kimi, 15 nəfər Mərkəzi Seçki Komissiyasına (MSK) müraciət etmişdi. Həmin 15 nəfərdən hamısı qeyd alındı və onlara imza vərəqləri verildi. Onlardan 5 nəfəri həmin imza vərəqlərini geri qaytarmadı. Yerdə qalan 10 nəfər imza vərəqlərini MSK-ya təqdim etdi. Bunlardan ikisinin imzaları və digər sənədləri qanunvericiliyin tələblərinə cavab vermədiyinə görə onların namizədliyi qeydə alınmadı. Beləcə, 8 nəfər namizəd artıq qeydiyyata alınıb. Onlar artıq Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkilərində prezident kürsüsü uğrunda mübarizə aparacaqlar. Bunun ikinci mərhələsi təbliğat-təşviqat kampaniyasının aparılması ilə bağlıdır. Bununla bağlı hər bir namizəd təbliğatın bütün növlərindən bərabər şəkildə istifadə edir və edə də bilər. Bildiyiniz kimi yerlərdə məntəqələr qarşısında şitlər quraşdırılıb və onlar öz plakatlarını orada yerləşdirə bilərlər.

Bundan başqa hər bir rayonda qapalı və açıq yerlər müəyyənləşib ki, istənilən namizəd o qapalı və açıq yerlərdə öz təbliğatını aparmaq, seçki platformasını çatdırmaq üçün sözügedən yerlərdən istifadə etmək hüququna malikdir. Artıq namizədlər bunlardan istifadə edirlər və görüşlər keçirirlər. Eləcə də İctimai televiziya və radioda, dövlət qəzetlərində hər həftə 6 saat olmaqla - 3 saat televiziya və 3 saat radioda canlı olaraq namizədlərə müxtəlif sahələr üzrə özünün mövqeyini və proqramını seçicilərə çatdırmasından ötrü tam şərait yaradılıb. O cümlədən dövlət qəzetlərində - "Azərbaycan", "Xalq", "Bakinski-Raboçi"də bu şərait onlara yaradılıb. Namizədlərə ödənişsiz hüquq verilib ki, onlar üç həftə ərzində proqramlarını, platformasını, plakatlarını orada yerləşdirə bilsinlər. Bununla belə ödənişli efir vaxtı İctimai televiziyada və özəl kanallarda müəyyənləşib. Kim istəyirsə müqavilə bağlayıb öz təbliğatını orada apara bilər.

Həmçinin, bildiyiniz kimi bu gün yeni texnologiyalar dövrüdür. Dünyanın hər yerində bu texnologiyalardan istifadə olunur. Azərbaycanın ən ucqar dağ kəndlərində internet fəaliyyət göstərir. İstənilən internet portalları, saytları və yaxud da qəzetlərində, eləcə də internet televiziyaları ilə müqavilə bağlayıb öz təbliğatlarını apara bilərlər. Qeyd etmək istərdim ki, Azərbaycanda kifayət qədər internet istifadəçisi var. Hətta bu yarım, bir milyonu belə ötüb. Bir sözlə hər bir namizəd üçün bərabər şərait yaradılıb. Bugünkü günə qədər istər imzatoplama kampaniyasında, istər namizədliyin irəli sürülməsində və s. digər məsələlərdə heç bir namizədin bununla bağlı şikayəti yoxdur. MSK-ya, dairə seçki komissiyalarına və məhkəmələrə elə bir müraciət daxil olmayıb. ATƏT-in nümayəndələri və "exit-poll" aparan qruplarla namizədlərin görüşləri keçirilib. Bütün namizədlər bildiriblər ki, imzatoplama zamanı heç bir müdaxiləyə rast gəlinməyib və MSK tərəfindən hər bir namizədə lazım olan köməklik və dəstək göstərilib.

**- Yeni Azərbaycan Partiyasının prezident seçkilərinə hazırlığı necə gedir?**

- Yeni Azərbaycan Partiyası həmişə olduğu kimi, seçkilərə öncədən hazırlaşır. Təbii ki, aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı hazırlıq işlərimizi də öncədən görmüşük. Biz seçkiyə bir ildən çox vaxt qalmış hazırlıq işlərini aparırıq. Bildiyiniz kimi ötən ildən YAP özünün şəhər və rayon təşkilatlarının konfranslarını keçirdi, yeni tərkiblər seçildi və qurultaya nümayəndələrini müəyyənləşdirdi. Bir sözlə ötən ilin dekabr ayında biz tam şəkildə hazırlıq işlərimizi görüb başa çatdırmışdıq. Hazırda "Təqvim Planı"na əsasən biz öz işlərimizi görürük. Demək olar ki, YAP hər bir məntəqəyə bir nəfər məşvərətçi səshüquqlu üzv və bir nəfər müşahideçi təyin edib. Bunlar artıq təyin olunub və vəsiqələrini alıblar. Respublikanın bütün ərazisi üzrə müşahidə aparacaq şəxslər artıq təyin olunub və onlar MSK tərəfindən vəsiqələrini alıblar. O cümlədən YAP-ın 84 rayon və şəhər təşkilatında seçki qərargahları fəaliyyət göstərir. Bu seçki qərargahlarında 15 nəfərdən 35-dək insanlar həmin qərargahının üzvləridirlər. Təbii ki, bu rayonların böyüklüyündən, kiçikliyindən və ərazisindən asılıdır. Həmçinin orada təbliğat qrupları fəaliyyət göstərir. Hansı ki, bu təbliğat qruplarına da rayonun tanınmış ziyalıları, hörmətli insanları daxildirlər.

Biz təbliğat-təşviqat kampaniyasını üç istiqamətdə qurmuşuq. Birincisi, biz rayonlarda böyük mitinqlər keçiririk. Həmin mitinqlərdə bizim millət vəkillərimiz, təbliğat qrupuna daxil olan insanlarımız, ziyalılarımız, incəsənət, mədəniyyət xadimləri, hamısı iştirak edirlər. Onlar bizim proqramımızı, cənab Prezident İlham Əliyevin platformasını ictimaiyyətə, seçicilərə çatdırırlar. İkincisi, çalışırıq bu işlər iri yaşayış məntəqələrini əhatə etsin. Yerli təbliğat qrupları isə kiçik kəndlərdə, hətta ən ucqar dağ kəndlərində bu görüşləri keçirirlər. Martın 28-nə kimi biz 15 böyük mitinq keçirmişik. Bakı şəhərində 70-dən artıq tədbir keçirilib. Kənd rayonlarında isə 584 görüş keçirilib. Ümumilikdə 558 000 min nəfərlə görüş keçirilib. Təbii ki, indi aktivlik bir qədər də genişlənib. Biz çalışacayıq ki, bu görüşlərlə, onlara o mesajların çatdırılması ilə seçicilərin heç olmasa 50 faizdən çoxusunu əhatə edək. Bizə verilən məlumatlara görə digər namizədlər də onlar üçün ayrılmış rəsmi yerlərdə öz görüşlərini keçirirlər.

**- Siyavuş müəllim, prezidentliyə namizədlərin təbliğat-təşviqat kampaniyası davam edir. Siz necə düşünürsünüz, debatlar zamanı bəzi namizədlərin təşviqatdan sui-istifadə hallarına yol verməsi nə dərəcədə düzgündür?**

- Ümumiyyətlə, Seçki Məcəlləsinə uyğun olaraq belə bir məsələ var ki, milli, dini ayrı-seçkiliyə, dövlət əleyhinə və s. olan çağırışlardan başqa, istənilən namizəd istənilən fikri söyləməyə azaddır. O baxımdan da istənilən namizəd bəziləri seçki platformasını seçicilərə çatdırır, bəziləri də müəyyən fikirlər söyləyir, bəziləri də qeyri-obyektiv fikirlər söyləyir. Yəni, bu, onun artıq hüququdur. Ona heç kəs bu sahədə qadağa qoya bilməz.

**- Müxalif qurumlardan seçkiləri boykot edənlər oldu. Bunun seçkilərə ciddi təsiri olacaqmı?**

- Onların boykot qərarının seçkilərə heç bir təsiri yoxdur. Azərbaycan hakimiyyətinin mənbəyi xalqdır. Azərbaycan Respublikasının Konstitusiyasında bu birbaşa göstərilib. Kimin iştirak edib-etməməsi seçkinin demokratikliyinə, kütləviliyinə, azadlığına heç bir təsir göstərə bilməz. Burada hamı üçün bərabər şərait yaradılıb. Kim istəyir gəlib iştirak etsin. İndi iki partiya iştirak etmir bu o demək deyil ki, seçki boykot olunmalıdır. Onlarla partiya seçki prosesinə qatılıb və iştirak edir. Yəni azlıq çoxluğa tabedir, çoxlu azlığa yox.

**- Növbəti prezident seçkiləri ölkəmizlə bərabər, region üçün nə dərəcədə əhəmiyyətlidir?**

- Aprelin 11-də keçiriləcək prezident seçkiləri region üçün çox böyük əhəmiyyətə malikdir. Bildiyiniz kimi Azərbaycan regionun ən aparıcı dövlətlərindən biridir. Ölkəmiz şərqlə qərbin birləşdirici bir nöqtəsidir. Azərbaycanda istər Avropa İttifaqının, istərsə də ayrı-ayrı ölkələrin bir çox qlobal layihələri həyata keçirilir. Azərbaycan çox cəsarətlə bu addımları atır. Təkcə elə ötən gün İran prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri və imzalanan müqavilələr gələcəkdə Asiya ilə Avropanın tam birləşməsinə və burada geniş bir nəqliyyat dəhlizinin yaradılması üçün Hind okeanından Avropanın mərkəzinə qədər layihələrin reallaşması sayılır. O baxımdan da Azərbaycan burada mühüm rol oynayır. Tək Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolunun işə düşməsi bir çox ölkələrin - Çin, Orta Asiya, Avropa dövlətlərinin bir-birinə yaxınlaşmasına və ticarət dövriyyəsinə böyük təkan verdi. Rəşt-Astara dəmiryolunun da fəaliyyətə başlaması və İranın buradan gəlib BTQ-yə qoşulması ilə əlaqədar demək olar ki, bir neçə qitənin birləşməsinə gətirib çıxaracaq. Burada həm turizm, nəqliyyat daşınmaları, ticarət, həm də sərnişin daşınmaları var. Bu, hərtərəfli şəkildə infrastrukturun formalaşmasına xidmət edəcək. O cümlədən də Azərbaycanın qlobal layihələrinin təkcə elə "Əsrin Müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması bu inkişafın bariz göstəricidir. Təbii ki, bütün bu məsələlərin hamısı Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında yaranıb. Bu gün də Ümummilli Liderin bu ideyalarının daşıyıcısı, aparıcısı, həyata keçiricisi Azərbaycan Prezidenti İlham Əliyevdir. Ona görə də cənab İlham Əliyevin yenidən prezident seçilməsi bu layihələrin davamlılığının, möhkəmliyinin, Azərbaycanda olan ictimai-siyasi sabitliyin, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasının tam qarantı olacaq.

**- Beynəlxalq təşkilatların seçkilərə marağı hansı səviyyədədir?**

- Heç şübhəsiz ki, beynəlxalq təşkilatların maraqlı olanları və olmayanları da var. Yəni biz onlarla görüşəndə də yalnız bir sözü demişik ki, biz sizdən obyektiv rəy gözləyirik. Əgər haradasa nöqsan varsa onu deyin və biz onu aradan qaldıraq. Eləcə də haradasa həqiqət varsa, o həqiqəti də elan edin. Yəni maraq çərçivəsində deyil, müşahidə apardığınız işin nəticəsini öz hesabatlarınızda dərc edin. Həmçinin hansısa dövlətin, beynəlxalq təşkilatın, lobbinin təhriki ilə deyil, özünüzün apardığınız və qanuna, beynəlxalq hüquqa əsaslanan rəyi ortaya qoyun. Əks təqdirdə kiminsə marağı varsa və o marağı həyata keçirmək üçün bu proseslərdən istifadə edirsə onunla Azərbaycan xalqını aldada bilməyəcək. Bir sözlə, "elin gözü tərəzidir".

**-Son olaraq, Milli Şura martın 31-də növbəti mitinq keçirməyi planlaşdırır. Bu mitinqin təşkili başlıca olaraq nəyə hesablanıb?**

- Ümumiyyətlə, bu cür mitinqlərin keçirilməsi Azərbaycanda ancaq pozuculuq fəaliyyətinin göstəricisidir. Niyə? Birincisi, kifayət qədər yerlər ayrılmışdı. Əgər mitinq keçirmək və yaxud da hansısa tədbir keçirmək iqtidarına malik idinsə, o zaman seçkidə iştirak edərdin. Bütün regionlarda, rayonlarda görüşlər keçirərdin və insanlara öz fikirlərini, rəylərini çatdırardın. Amma ayda bir dəfə iki min və yaxud iki min beş yüz adam toplamaqla hər hansı bir mitinq keçirməyin heç bir əhəmiyyəti yoxdur. Yəni bu addımlar sırf müəyyən dairələrin təhriki ilə və onlardan ayrılan maliyyə yardımının nəticəsi olaraq atılır. Özünüz də görürsünüz ki, paralel olaraq Avropada yalandan mühacir adı almış adamlar o tərəfdən, erməni lobbisi digər tərəfdən təzyiqlər edirlər. Bu eyni mərkəzdən idarə olunan qüvvələrdir. Bu mitinqə toplaşanlar nə eqidəyə, siyasi baxışa, nə də demokratiyaya və digər amillərə görə yığışmayıblar. Onların mitinqində bir tərəfdə islamçı dayanır, bir tərəfdə guya Avropaya inteqrasiya etmək istəyən şəxslər, digər tərəfində isə bu və ya digər şəkildə cinayət törətmiş şəxslərin valideyinləri durur və s. Bura o qədər qarışıq bir kontingentdir ki, müəyyən etmək olmur ki, kim burada nə istəyir və tələb nədən ibarətdir. Yəni bu cür insanların hesabına say artırmağa çalışmaq və yaxud da hansısa bir təsir, təzyiq göstərmək mənasızdır. Bu insanların sosial bazası, elektoraı olmadığına görə onlar seçkidən yayındılar və qaçdılar. Çünki orada imza toplamaq, görüşlər keçirmək, təbliğat kampaniyasını aparmaq və proqram yazıb masaya qoymaq lazım idi ki, mən nə etmək istəyirəm. İndiyədək onların bir səhifə yazılı şəkildə proqramı yoxdur. Elə iyirmi ildir söylədiklərini yenə təkrarlamaqla məşğuldurlar. Ancaq "Azadlıq" şüarı ilə çıxış edirlər. Bəyəm biz azad deyilik? Bu gün Azərbaycanda olan azadlıq heç bir ölkədə yoxdur. Bu gün Azərbaycan qədər müstəqil siyasət yürüdən (daxili və xarici) heç Avropa İttifaqına daxil olan ölkələr yürütmür. Eləcə də bu gün Azərbaycan xalqının maraqları qədər heç bir ölkə öz xalqının maraqlarını müdafiə edə bilmir. Azərbaycan Prezidenti gecə və gündüz bu xalqın maraqlarını müdafiə edir. Bəs bundan artıq nə istəyirsən? Bu gün Azərbaycanda yaradılan təhlükəsizlik sistemi, ictimai-siyasi sabitlik və s. bütün bunlar hamısı ölkəmizin gücüdür. Azərbaycanda xalqla dövlətin və iqtidarın bir yerdə olmasıdır.

***Ceyhun Rasimoğlu***

# Xalq İlham Əliyevə “HƏ” deyir!

## Binəqədi seçiciləri qərarlarında israrlıdırlar - Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsi seçicilərlə növbəti görüş keçirib.






Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov Azərbaycanda son 15 il ərzində görülən işlər, həyata keçirilən layihələr haqqında məlumat verib. R.Göyüşov, ərzaq təhlükəsizliyinin təmin edilməsi, yeni nəslin daha sağlam böyüməsi, vətəndaşların maddi-rifah halının yüksəldilməsi, sosial müvavinətlərin artırılması istiqamətində görülən işlərdən danışıb. Rayon şöbəsinin sədri bütün seçiciləri qarşıdan gələn prezident seçkilərində fəal iştirak etməyə, son 15 ildə ölkəmizi tərəqqiyə və xalqımızı firavanlığa aparan Liderə səs verməyə çağırıb.

Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxışında iqtisadi islahatlardan və səhiyyə sahəsindəki nailiyyətlərdən danışdı. O bildirib ki, bu yaxınlarda açılışı gerçəkləşdirilən və ölkəmizə milyardlarla dollar həcmində vəsaitin daxil olmasını təmin edəcək iri layihələrdən bəhs edib. Millət vəkili əldə olunan uğurların bundan sonra ardıcıl və davamlı olması üçün bütün seçiciləri aprelin 11-də keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetin prorektoru Asəf Zamanov isə Cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan təhsil islahatlarından danışıb. Son 15 ildə minlərlə tam orta ümumtəhsil və ali təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsindən və təhsilini keyfiyyətinin yüksəldilməsi istiqamətində reallaşdırılan islahatlardan bəhs edib. O, ölkəmizin və xalqımızın davamlı inkişafı və tərəqqisi naminə seçiciləri əvvəlki seçkilərdə olduğu kimi, qarşıdan gələn prezident seçkilərində də Cənab İlham Əliyevə etimad göstərəcəklərinə və səs verəcəklərinə inandığını bildirib.

Sahibkar, “Hilal” İctimai Birliyinin sədri Arzuman Abdulkərimov çıxışında ölkəmizdə sahibkarlığın inkişafı, sahibkarların rahat və maneəsiz fəaliyyət göstərmələri üçün Cənab İlham Əliyevin rəhbərliyi ilə göstərilən dövlət qayğısından, sahibkarlara güzəştli kreditlərin verilməsini, istehsal sahələrinin genişləndirilməsi üçün həyata keçirilən islahatlardan danışıb. A.Abdulkərimov bildirib ki, aprelin 11-də xalqımız sabitliyə və inkişafa səs verəcək.

Görüşdə çıxış edən seçicilərdən - Məleykə Allahverənova, Şirincan Məmmədova, Leyla Quluzadə, Mahmud Mahmudov və başqaları Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti dəstəklədiklərini və qarşıdan gələn prezident seçkilərində, məhz ən layiqli namizəd olan Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qaxlılar öz səslərini Cənab İlham Əliyevə verəcəklər





Dünən Qax rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində növbəti görüş keçirilmişdir. Görüşdə rayonun İlisu və Ağçay kəndinin sakinləri iştirak etmişlər. Seçicilərlə görüşdə iştirak edən YAP Mərkəzi Seçki Qərargahının Qax rayon seçki qərargahının təbliğat-təşviqat qrupunun üzvləri - Əbdürrəhman Aşurov, Soltan Camalov və Babək Heydərov seçicilər qarşısında çıxış edərək, vurğuladılar ki, Azərbaycanın son 15 ildə qazandığı və fəxr etdiyi bütün nailiyyətlər İlham Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətini uğurla, yeni məzmun və formada davam etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir ki, Azərbaycan bu gün müstəqil, sürətlə inkişaf edən dünyəvi dövlət olaraq regionda öz liderliyini qoruyub-saxlaya bilir: “Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Müdrik Azərbaycan xalqı daim öz prezidenti ilə birlikdədir və əlbəttə ki, növbəti illərdə də Onunla birlikdə olacaqdır”.

Görüşdə seçicilərdən Məryət Xəlilova, Şəfi Rəşidov və Seyfullah Həmidov böyük bir coşqu ilə qeyd etdilər ki, bizim Qax rayonu da, digər bölgələr kimi, günü-gündən abadlaşır, gözəlləşir, yeni inzibati binalar tikilir və parklar salınır. Bu inkişafın, bu tərəqqinin şahidi olan hər bir qaxlı Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və müdafiə edir: “Xalqın öz Prezidentinə olan sevgisi və dəstəyi heç də təsadüf deyil. Çünki vətəndaşlar dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə görülən bütün işlərin nəticələrini öz gündəlik həyatında hiss edirlər. Bu mənada, tam məsuliyyətlə demək olar ki, 11 apreldə keçiriləcək seçkilərin qalibi məlumdur və bu qalib seçkilərdə hamımız tərəfindən dəstəklənəcək Cənab İlham Əliyevdir”.

## İsmayıllı seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər!

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində mitinq-konsert keçirib.

Tədbiri YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova açaraq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı strategiya, inkişaf konsepsiyası, bütövlükdə son 15 il ərzində, daha da inkişaf etdirilib, zənginləşdirilib və təkmilləşdirilib. Bu gün qürur və iftixar hissi ilə etiraf etdiyimiz möhtəşəm inkişaf varislik prinsipi əsasında Ulu Öndər Heydər Əliyev siyasətinin, məhz Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə əlaqədardır. S.Əhmədova çıxışında qeyd edib ki, məhz sadalanan faktları nəzərə alan ismayıllı seçiciləri növbəti dəfə də Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə etimad göstərəcəklər. Bununla seçicilər inkişafı, firavanlığı və sabitliyi seçmiş olacaqlar.

Görüşdə Milli Məclisin deputatı Novruzəli Aslanov, Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat İnstitunun direktoru Misir Mərdanov, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva və YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü Rəna Əliyeva çıxış edərək, qeyd ediblər ki, bu gün Prezident






İlham Əliyevin həyata keçirdiyi uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir. Çıxış edənlər Cənab İlham Əliyevin növbəti illərdə də Azərbaycana rəhbərlik etməsi ilə inkişaf və tərəqqimizin daha da artacağını, ölkəmizin daha yüksək qələbələrə imza atacağını nəzərə çatdırıblar. Bildirilib ki, prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevi dəstəkləməklə, işıqlı sabahımıza və gələcək inkişafımıza səs verəcəklər. Mitinq konsert proqramı ilə davam etdirilib.

***

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində İsmayıllı rayon qadınları ilə görüş keçirib.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova bildirib ki, 2003-cü ildə “Zəngin və qüdrətli Azərbaycan uğrunda” çağırışı ilə milyonları öz ətrafında toplayan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti ilə Azərbaycanda demokra-



tik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi daha müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Prezident İlham Əliyevin inkişaf konsepsiyasının əsas hədəflərindən biri ölkə iqtisadiyyatının inkişafının davamlı xarakter almasıdır.

Çıxış edən Milli Məclisin deputatı Novruzəli Aslanov, Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat İnstitununun direktoru Misir Mərdənov bildirib ki, uğurlu fəaliyyət modeli bütün dünya tərəfindən qəbul olunan görkəmli dövlət xadimi kimi beynəlxalq miqyasda böyük nüfuz qazanan Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə qüsursuz siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı və milli-siyasi etika nümunəsi gətirdi.

Tədbirdə çıxış edən YAP İsmayıllı rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova, rayon qadınları Lətifə Əliyeva, Ruhiyyə Süleymanova, Elnarə Aslanlı, Salmanlı Simuzər və başqaları qeyd ediblər ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici və daxili siyasət nəticəsində ölkəmiz güclü iqtisadiyyata, müstəqil və qüdrətli siyasi iradəyə malik olan dövlətə çevrilib.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 6

***

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində İsmayıllı rayonu Topçu və Qalınçaq kəndlərində seçicilərlə görüşlər keçirib.

Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Sevil Əhmədova çıxış edərək qeyd edib ki, Azərbaycan 2003-cü ildən öz tarixinin yeni mərhələsinə qədəm qoymuşdur. Ulu Öndər Heydər Əliyev ideyaları, siyasi xətti yaşayır və bu siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan son 15 ildə sürətlə inkişaf edərək, regionun lider dövlətinə çevrilmişdir. Hazırda həyata keçirilən irimiqyaslı layihələr respublikamızın beynəlxalq aləmdə nüfuzunu daha da





artırmaqdadır.

Tədbirdə Milli Məclisin deputatı Novruzəli Aslanov, Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat İnstitutunun direktoru Misir Mərdənov çıxış edərək bildiriblər ki, son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən Azərbaycan tək Cənubi Qafqazın deyil, Qərblə Şərqin ortalığında yerləşən böyük bir bölgənin ən nüfuzlu dövlətlərindən birinə çevrilib. İndi beynəlxalq siyasi müstəvidə Azərbaycanın nüfuzu yüksələrək, elə bir səviyyəyə çatıb ki, o, artıq dünyanın superdövlətləri arasında baş verən münaqişələrin nizamlanmasında öz sözünü deyə bilir. Belə uğur Ulu Öndər Heydər Əliyev siyasi və iqtisadi kursunun davamçısı Cənab İlham Əliyevin 2003-cü ildən başlayaraq, apardığı düşünülmüş siyasətin məntiqi nəticəsidir.

Seçicilərdən Topçu kənd sakinləri Fəzail Şirəliyev, Xavər Allahverdiyeva, Həsən Məmmədov, Rəşid Məmmədov, Sabir İsayev, Qalınçaq kənd sakinləri Xətai Əzizov, Xalid Seyidov, Qədim Mirzəliyev və Əsmər Abdullayeva çıxış edərək, vurğulayıblar ki, bu gün Azərbaycan bölgədə sabitlik və təhlükəsizlik məkanı olmaqla nəinki ölkə daxilində, eyni zamanda, regionda aparıcı rola malikdir. Azərbaycanın inkişafı və müxtəlif istiqamətlər üzrə aparılan dövlət siyasəti çoxşaxəli, davamlı və milli maraqlara söykənir. Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən üstün tutan Cənab İlham Əliyev bütün İsmayıllı sakinlərinin alternativsiz namizədidir. 11 apreldə bütün seçicilər bu siyasətə səs verəcəklər.

## Xaçmazlı ağsaqqalların seçimi Cənab İlham Əliyevdir

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı rayon ağsaqqalları ilə görüş keçirib.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, bildirib ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı quruculuq işləri, nəhəng infrasturuktur layihələr reallaşdırılmışdır: “Prezident İlham Əliyevin rəhbərliyi ilə sabit və demokratik ölkədə görülən işlər, imzalanan fərman və sərəncamlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları dövlət başçısının hər bir vədinin arxasında konkret əməli işin dayandığını təsdiqləyir. Cənab İlham Əliyev ölkəyə rəhbərliyi dövründə hamıya əhəmiyyətli, məqsədyönlü siyasəti ilə sübut etdi ki, O, dövlətini, millətini xalqını sevən əvəzolunmaz Liderdir”. Rayon təşkilatı sədri





bütün bu uğur və nailiyyətlərin Cənab Prezidentin rəhbərliyi ilə gerçəkləşdiyini bildirərək, İlhamlı sabahımıza, “İLHAMLA İRƏLİ!” - deyərək, xaçmazlı seçiciləri uğurlu gələcəyimiz naminə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə rayon ağsaqqallardan Xanlar Seydəliyev, Məhərrəm Abasov, Nadir Lalayev, Cəmil Ocaqov və başqaları çıxış edərək, ölkəmizdə həyata keçirilən quruculuq işlərindən, ölkəmizdə gedən dinamik inkişafdan danışıblar. Bu işlərin davamlı olmasını vurğulayaraq, rayon seçicilərini 11 apreldə Ulu Öndər Heydər Əliyev siyasətinin ən layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

## Daha qüdrətli Azərbaycan naminə “İlhamla irəli!”

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirdi.



Görüşdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva son 15 il ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi cəsarətli, düşünülmüş və gələcəyə hədəflənmiş siyasəti nəticəsində, müstəqil Azərbaycanın bütün sosial-iqtisadi sahələrdə əldə etdiyi misilsiz uğurlar, ölkəmizdə yüksələn dinamika ilə davam edən tərəqqi, reallaşdırılan çoxşaxəli, sistemli iqtisadi və siyasi islahatlara nəzər saldı. Qeyd etdi ki, ötən dövr ərzində Cənab İlham Əliyev həyata keçidiyi genişmiqyaslı misilsiz işlərlə hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi: “Bu siyasət bizi daha böyük uğurlara, tərəqqiyə və ümumxalq rifahına aparır. Biz, daha qüdrətli Azərbaycan və etibarlı gələcəyimiz naminə, birmənalı olaraq, Liderimiz ətrafında sıx birləşməli və partiyamızın vahid namizədini 11 aprel günü yekdilliklə dəstəkləməliyik”.

Görüşdə Azərbaycan Respublikası Milli Akademiyasının İnformatika və Müasir Texnologiya İnstitutunun direktoru akademik Rasim Əliquliyev, Milli Məclisin üzvü Dilarə Cəbrayılova və Sabunçu rayon Ağsaqallar Şurasının sədri Nadir Əsədov çıxış edərək, 15 il ərzində Prezident İlham Əliyev tərəfindən ölkəmizin dinamik inkişaf etdiyini, elm, təhsil, mədəniyyət, gənclər, idman və ordu quruculuğu sahəsində əldə edilən uğurları diqqətə çəkdilər. Çıxış edənlər Sabunçu seçicilərini bu uğurların davamına səs verməyə çağırdılar.

## Nəsimi gəncləri “İlhamla İrəli!” deyir

Yeni Azrəbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun 18 yaşı yeni tamam olmuş 300-ə yaxın gənci ilə “İLHAMLA İRƏLİ!” şüarı altında görüş keçirdi.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Nəsimi rayon şöbəsinin sədri Məlahət İbrahimqızı bu il ilk dəfə





səs verəcək gəncləri təbrik etdi və qeyd etdi ki, ilk dəfə səs vermək və ümumxalq səsvermısində öz siyasi iradəsini nümayiş etdirmək hər bir gəncin həyatında tarixi hadisədir. M.İbrahimqızı gəncləri seçkilərdə fəal olmağa və əldə olunan nailiyyətlərin, ölkəmizdəki ictimai-sabitliyin davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırdı.

Görüşdə çıxış edən ilk dəfə səs verən 18 yaşlı gənclər Cənab İlham Əliyevin hakimiyyətə gəldiyi dövrdən bugünədək ölkə gənclərinin ən etibarli Dostu və Lideri olduğunu və gənclərin də Ona olan inam, etimad və rəğbətindən danışaraq, gələcəkdə də bu siyasətə sadiq olacaqlarını bildirdilər. Ümumxalq namizədi Cənab İlham Əliyevin prezidentliyə namizədliyinin Azərbaycan gəncləri tərəfindən yekdilliklə dəstəkləndiyi bildirdilər. Görüşün sonunda iştirakçılar yekdilliklə respublikanın bütün gənclərinə “İLHAMLA İRƏLİ!” səslənərək, 11 apreldə keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsinə çağırış etdilər.

## Xalq alternativsiz Liderinə səs verəcək

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi Mosul, Danaçı və Aşağı Çardaxlar kənd seçicilərilə görüş keçirib. Görüşdə 700-ə yaxın seçici iştirak edib.

Görüşlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsinin sədri Habil Qurbanov bildirib ki, Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf, bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətini artırıb. Ölkəmizdə ictimai-siyasi sabitlik təmin olunub, milli maraqlarımız qorunub, mürəkkəb tarixi bir mərhələdə Azərbaycanın sabitlik adası kimi beynəlxalq müstəvidə mövqeyinin möhkəmlənməsinə nail olunub. Rayon şöbəsinin sədri bu siyasətin davamlı olması və ölkəmizin daha böyük nailiyyətlərə imza atması üçün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Rayon şöbəsinin təbliğat qrupunun üzvləri Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva, Namidə Süleymanova və başqaları çıxış edərək, bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxsaylı uğurlu nailiyyətlər qazanılıb.

Ardı Səh. 6

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 mart 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 7

Əldə olunan uğurlara rəğmən, 11 aprel seçkilərində Azərbaycan xalqı öz seçimini müəyyənləşdirəcək, xalqının alter-





nativsiz lideri Cənab İlham Əliyevi səs verəcək.

Mosul, Danaçı və Aşağı Çardaxlar kənd ağsaqqalı və ziyalılar seçiciləri adından çıxış edərək, bildiriblər ki, biz artıq seçimimizi etmişik, hamılıqla namizədimiz olan Cənab İlham Əliyevə səs verərək, gələcək inkişafımızı və əmin-amanlığımızı təmin edəcəyik.

## Səbail rayonu seçiciləri yekdilliklə Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyirlər

YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Dünən Səbail rayonu seçiciləri ilə növbəti görüş keçirildi. 300-dən çox seçicinin iştirak etdiyi görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin





Hacıyev Yeni Azərbaycan Partiyasının Lideri və vahid namizədi, Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin 2003-cü ildən etibarən ölkə başçısı kimi genişmiqyaslı və çoxşaxəli fəaliyyəti, Onun müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və xalqımızın rifahının ildən-ilə daha da yaxşılaşdırılması istiqamətində apardığı uğurlu daxili və xarici siyasət haqqında ətraflı məlumat verdi. O, Səbail rayon seçicilərini seçki prosesində, hər zaman olduğu kimi, fəal olmağa, ölkəmizdə gedən möhtəşəm proseslərdə daha yaxından iştirak etməyə və aprelin 11-də mütəşəkkil şəkildə seçki məntəqələrinə gələrək, Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin təbliğat qrupunun üzvü, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru, millət vəkili Hikmət Babaoğlu, ilk növbədə, seçiciləri gələcək siyasi taleyimizə laqeyd olmamağa və 11 aprel seçkilərində siyasi iradələrini nümayiş etdirməyə çağırdı. 1918-ci ildə Şərqdə ilk demokratik Cümhuriyyət yaradan xalqımızın tarixin süzgəcindən keçib gələn siyasi mədəniyyətə sahib olduğunu diqqətə çatdıran H.Babaoğlu vurğuladı ki, Cənab İlham Əliyevin məharətli daxili siyasəti nəticəsində, Azərbaycanda formalaşan intellektual cəmiyyətin bugünkü milli gücü Liderimizin rəhbərliyi altında dostda pərəstiş, düşməndə vahimə yaradır. Bu uğurlarımızın təməlində Ulu Öndər Heydər Əliyevin dövlətçilik məktəbi və azərbaycançılıq ideologiyası dayanır. Əminik ki, xalqımız 11 aprel tarixində də, öz işıqlı gələcəyi naminə, ən düzgün qərarı verəcək və müasir Azərbaycanın son 15 ildə qürurla bəhs etdiyimiz bütün nailiyyətlərinin müəllifi Cənab İlham Əliyevə səs verəcəkdir".

Görüşdə Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, xalq artisti, professor Azər Paşa Nemətov, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru akademik İradə Hüseynova və Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Ağacan Əhmədov çıxış edərək gördüyü işlərlə ümumxalq dəstək və etimadını qazanan Möhtərəm Prezidentimiz İlham Əliyevin ötən dövr ərzində xalqımızın rifahının yaxşılaşdırılması, dövlət siyasəti səviyyəsində Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, ümumiyyətlə, bütün ictimai-siyasi sahələrinin inkişafına göstərilən diqqət və qayğıdan danışaraq, bu nailiyyətlərin davamlı olması üçün seçiciləri partiyamızın Lideri Cənab İlham Əliyevə səs verməyə dəvət etdilər. Seçicilər adından danışan Dənizkənarı Bulvar İdarəsinin əməkdaşları Mahirə Nəsirova, Məhərrəm Məhərrəmli, Nigar Məmmədova və Aydın Cabbarov ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi üçün Prezidentimizə minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və 11 aprel seçki günü hamı bir nəfər kimi məntəqələrə gələrək, Azərbaycan xalqının ən layiqli namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Qəbələ seçiciləri iqtisadi inkişafa və siyasi sabitliyə səs verəcəklər

Dünən prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qəbələ rayonunun Yemişanlı kəndində seçicilərlə növbəti görüş keçirilib. Tədbirdə Uludaş kəndinin seçiciləri də iştirak edib. Görüşdə çı-





xış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Ümüdvar Həsənov ölkəmizin hərtərəfli inkişafında Cənab İlham Əliyevin böyük rolu olduğunu bildirdi, xalqın firəvan yaşamasında Onun diqqət və qayğısının olduğunu xüsusi vurğulayıb və seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə Ulu Öndər Heydər Əliyev siyasətinə, bu siyasətin layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Arifə Bayramova çıxış edərək, Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət kursu barədə danışıb. O, aprelin 11-də keçiriləcək prezident seçkilərində seçiciləri fəallıq göstərməyə və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən kənd məktəbinin müəllimlərindən Hakim Əliyev, Habil Şərifov və Xanım Mustafayeva artıq seçimlərini etdiklərini və Cənab İlham Əliyevə səs verəcəklərini bildirblər.

## Qobustanlılar Cənab İlham Əliyevə "HƏ" deyir

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsi namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-





təşviqat kampaniyası çərçivəsində Xilmilli, Şıxzahırlı və Təklə-Mirzəbaba kənd seçiciləri ilə görüş keçirilib. Növbəti görüş isə rayonun Xilmilli, Şıxzahırlı və Təklə - Mirzəbaba kənd sakinləri ilə keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin sədri Füzuli Gülaliyev qarşıdan gələn prezident seçkiləri ilə bağlı məlumat verib və prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə seçiciləri tanış edərək, qeyd edib ki, bu gün Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərdə Cənab İlham Əliyevin imzası var. Biz bu uğurların davam etməsi üçün Cənab İlham Əliyevə səs verəcəyik.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsinin üzvü Tahir Səbzaliyev, təbliğat -təşviqat qrupunun üzvü Bəyim İsmayılova, Əlisa Hacıyev və Vüsal Şıxaliyev ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Prezident İlham Əliyevin daim xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışaraq, seçicilərin yalnız Cənab İlham Əliyevə səs verəcəklərinə əmin olduqlarını ifadə etdilər.

Görüşdə kənd sakinlərindən Mübarək Cəbrayılov, Zülfiyyə Başirova, Emin Seyidov və digərləri çıxış edərək son illərdə ölkəmizdə gedən abadlıq-quruculuq işlərindən, xalqın sosial rifahına yönəldilmiş layihələrdən, beynəlxalq səviyyədə ölkəmizin artan nüfuzundan, ordu quruculuğundan, iqtisadi yüksəlişindən, dayanıqlı inkişafından söhbət açaraq ölkəmi-

# Xalq İlham Əliyevə “HƏ” deyir!

zin yeni qələbələrə və uğurlara imza atması üçün Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Zərdab seçiciləri Cənab İlham Əliyevə səs verəcəklər

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilə-






rində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsi rayonun Yarməmmədbağı və Lələağacı kəndlərindən olan seçicilərlə görüş keçirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Zərdab rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Pərvin Mahmudova çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin son 15 il ərzində ölkə rəhbəri kimi respublikamızın dinamik inkişafı naminə gördüyü işlər, eləcə də, Azərbaycanın beynəlxalq aləmdə gündən-günə möhkəmlənən nüfuzu haqqında ətraflı məlumat verib. P.Mahmudova seçki günü seçiciləri fəal olmağa və mütəşəkkil şəkildə seçki məntəqələrinə gələrək, alternativsiz Lider İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Vüsalə Kərimova, Ziyad Xancanov, Fiqura Abbasova, Mübariz Umarov və Məkkə Həmidova çıxış edərək ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Prezident İlham Əliyevin daima xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışıblar. Natiqlər dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən kənd seçicilərini 11 apreldə məntəqələrə gəlməyə və “İlhamla irəli” şüarı altında birləşərək, İlhamlı sabahımıza səs verməyə çağırıblar. Görüşdə seçicilər adından çıxış edən kənd sakinləri Zülfiyyə Əhmədova və Xatirə Qaçayeva ölkəmizin inkişafının davamlı olması üçün Yeni Azərbaycan Partiyasının layiqli namizədinə , ən çox sevilən rəhbərə, ən yüksək səviyyədə dəstəklənən Prezidentə, bütün xalqın sevimlisi Cənab İlham Əliyevə səs verəcəklərini bəyan ediblər.

## Ucarlı seçicilər: “Uğurlu gələcəyin tək qarantı-İlham Əliyevdir!”

Ucar rayonunda prezident seçkilərinin təbliğat-təşviqat işləri uğurla aparılmaqdadır. Kampaniya çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsi Alpout kəndində seçicilərlə görüş-mitinq keçirib. Mintinqdə Alpout kənd sakinləri, ziyalılar, qadınlar, gənclər və ağsaqqallar fəallıqları ilə seçiliblər.

Mintinqi giriş sözü ilə YAP Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva açaraq, Cənab İlham Əliyevin misilsiz xidmətləri haqqında məlumat verərək bildirib ki, ölkə Prezidenti ötən müddət ərzində öz fəa-





liyyəti ilə hər bir azərbaycanlının rəhbəri olduğunu təsdiq edib. Ş.Abdullayeva bunları nəzərə alaraq, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə təbliğat qrupunun üzvləri Alı Babayev, Fuad İsrafılov, Yaqut Zeynalova və Rahib Rəsulov çıxış edərək, ucarlı seçiciləri Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi və müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından Mövsümov Mirhəşim və Şükürov Müşfiq çıxış edərək, seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini vurğulayıblar.

## Göyçaylı seçicilərin seçimi Cənab İlham Əliyevdir!

YAP Göyçay rayon təşkilatı prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qızılağac





kəndində seçicilərlə görüş keçirib. Görüşdə çıxış edən YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov bildirib ki, Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində xalqın rifahi yüksəlib və ölkəmiz böyük uğurlara imza atıb. Rayon təşkilatının sədri daha uğurlu gələcək naminə seçiciləri fəal olmağa və seçki günü Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Göyçay rayon şöbəsinin üzvləri Ləman Hacıyeva, Namət Şirinov, Elçin İsmayılov və başqaları ölkəmizdə gedən sürətli inkişaf, həmçinin, Prezident İlham Əliyevin daima xalqımıza göstərdiyi yüksək diqqət və qayğı barədə danışıblar. Natiqlər dövlətçiliyə hər zaman sədaqət nümayiş etdirən Göyçay rayon seçicilərini 11 apreldə seçkilərə gəlməyə və inamlı sabahımıza səs verməyə çağırıblar.

## Şəki seçicilərinin birmənalı seçimləri Cənab İlham Əliyevdir!

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 1196 nəfərdən





yuxarı seçicisi olan Şəki rayonu Aşağı Küngüt və 739 nəfər seçicisi olan İbrahimkənd kəndlərində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi göstərdiyi fəaliyyəti barədə geniş söhbət açıb. O, əmin olduğunu bildirib ki, Aşağı Küngüt və İbrahimkənd kənd seçiciləri 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Sədrəddin Bədiyev, Rafiq Rəsulov və Qabil Qədimov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə sonsuz xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən kənd sakinlərinin artıq öz seçimlərini etdiklərini, 11 aprel tarixdə xalqımızın layiqli oğlu İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

Ardı Səh. 10




səs ®
www.sesqazeti.az
facebook Ses Media Holding
30 mart 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 9

## Şamaxı seçicilərinin yeganə seçimi Cənab İlham Əliyevdir

Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Şamaxı rayonunun Sabir qəsəbəsi və Çıraqlı kəndində keçirilən tədbirdə Yeni Azərbaycan Partiyası Şamaxı rayon təşkilatının sədri Bəxtiyar Abbasov, YAP Mərkəzi Seçki Qərargahının üzvləri Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, Azərbaycan Tibb Universitetinin





rektoru, professor Gəray Gəraybəyli çıxış ediblər.

Görüşlərdə qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının namizədi, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə Azərbaycan hərtərəfli və sürətli inkişaf tempi əldə edib. Ölkə daxilində bütün sahələr üzrə əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edəcək uğurlu siyasət reallaşdırılıb: "Bütün bunlar ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən Ümummilli Lider Heydər Əliyevin ideyalarının ardıcıl və qətiyyətli şəkildə həyata keçirilməsi sayəsində mümkün olub".

Tədbirlərdə Sabir qəsəbə sakinləri Ramiz Məmmədov, Xanəhməd Ağaməmmədov və Yaqut Məmədova çıxış edərək, ölkə Prezidentinin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı tərzdə dəstəkləndiyini qeyd edərək, seçicilərin 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıblar. Şamaxı seçiciləri ölkə Prezidenti Cənab İlham Əliyevə səs verəcəklərini və Onu dəstəkləyəcəklərini bildiriblər.

## Çiçəklənən və inkişaf edən Azərbaycanın qarantı Cənab İlham Əliyevdir





YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir. Dünən rayonun İmamqulukənd və Gedəzeyxur kəndlərində seçicilərlə növbəti görüşlər keçirilmişdir. Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov çıxış edərək, Prezident İlham Əliyevin son 15 ildə Azərbaycanda bütün sahələrdə sürətli inkişaf tempi yaratmaqla yanaşı, dünya ölkələri içərisində ölkənin beynəlxalq nüfuzunu və qüdrətini artırdığını bildirib. Qeyd olunub ki, bugünkü rifah və xoşbəxt həyata görə hər bir vətəndaş, məhz Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, Möhtərəm İlham Əliyev Cənablarına səs verəcəklər: "Qusarlıların seçimi dəyişilməzdir - İlhamlı sabahlara doğru, "İLHAMLA İRƏLİ!"

Görüşdə çıxış edən Milli Məclisin deputatı Azər Badamov, YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə Azərbaycanın qazandığı uğurlardan ətraflı şəkildə bəhs ediblər. Bildirilib ki, bu illər ərzində ölkəmizin hər yerində abadlıq-quruculuq işləri gedib və bölgələrimizin siması dəyişib. Çıxış edənlər bu uğurların davamlı olması üçün seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Seçicilər adından çıxış edən Oruc Orucov, Murtuz Səfərov, Yenilə Aslanxanova, Səbzulla Kəlbəliyev və Abubəkir Qədimov 11 aprel 2018-ci il tarixdə həmının, birmənalı olaraq, partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Ağdaşlılar İlham Əliyev siyasətinin davamına səs verəcəklər

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası





çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsi Aşağı Zeynəddin, Mürsəl və Şıxlı kəndlərinin seçiciləri ilə görüş keçirib. Görüşləri Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ağdaş rayon təşkilatının sədri, millət vəkili Cavid Osmanov açaraq, son 15 il ərzində, Azərbaycanın keçdiyi inkişaf yolundan və əldə olunan uğurlardan danışıb. Millət vəkili regionların sosil-iqtisadi inkişafına dair Dövlət Proqramının uğurla həyata keçməsi, ümumdaxili məhsulun və ölkənin valyuta ehtiyatlarının artması, qeyri-neft sektorunun, kənd təsərrüfatının və sənayenin inkişafı barədə öz fikirlərini bölüşərək, bu nailiyyətlərin əldə edilməsində əvəzsiz xidmətlərinə görə, seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırıb. Görüşdə seçicilər adından çıxış edənlər Həmidə Əliyeva, Mehman Abdullayev, Sevil Nəbiyeva və Elmira Rəhimova bəyan ediblər ki, onların yeganə bir seçimi var, o da Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevdir. Bu seçimi təsdiqləmək üçün 11 apreli səbirsizliklə gözləyirlər.

Görüşlərdə təbliğat qrupunun üzvlərindən Fuad Nəbiyev və Ramin Lətifov çıxış edərək, seçiciləri 11 apreldə seçki məntəqələrinə gələrək Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Quba seçiciləri iqtisadi inkişafın təminatçısına səs verəcəklər

YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası uğurla davam etdirilir.





Kampaniya çərçivəsində dünən rayonun I Nügədi inzibati-ərazi dairəsinin seçiciləri ilə yüksək əhvali-ruhiyyədə növbəti görüş keçirilib. Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək, Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən önəmli hadisə - 11 aprel prezident seçkiləri ərəfəsində olduğumuzu bildirib. Son 15 il ərzində Azərbaycanın keçdiyi inkişaf yoluna diqqəti yönəldən rayon təşkilatının sədri bildirib ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımız daha böyük uğurlara imza atıb.

Y.Abidov bildirib ki, Azərbaycan xalqı, o cümlədən, qubalılar praqmatik siyasəti ilə xalqın inam və etimadını qazanmış Cənab İlham Əliyevə - YAP-ın alternativsiz Liderinə səs verəcəklər. Görüşdə rayon təbliğat qrupunun üzvləri Həsən Günəşli, Elza Orucova, Rüfət Hacıyev, Hüseyn Kərimov və başqaları çıxış edərək, partiyanın namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən uğurlu siyasəti diqqətə çəkib, seçiciləri 11 apreldə keçiriləcək prezident seçkilərində davamlı inkişafa, bu inkişafın daha möhtəşəm olması üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Balakən seçiciləri "İlhamla irəli"deyir

Seçicilərlə görüş qrafikinin I mərhələsini yekunlaşdıran Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsi dünən rayonun Hənifə kənd Folklor Evində seçicilərlə növbəti görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev 2003-2018-ci illərdə Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil Azərbaycanın inkişafı naminə gördüyü işlərdən danışaraq, 11 aprel prezi-





dent seçkiləri günü kənd seçicilərini fəal olmağa və seçki məntəqələrinə gələrək, ölkəmizin inkişafının davamlığı üçün partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə kənd ağsaqqalları adından çıxış edən Hənifə kənd sakini Aftandil Məmmədov, kənd orta məktəbinin müəllimisi Aysel Muradova və başqaları ölkədə aparılan abadlıq-quruculuq işlərindən danışaraq, seçiciləri Cənab İlham Əliyevin müdrik siyasəti ətrafında birləşməyə çağırdılar. Qeyd olundu ki, 11 aprel seçkilərində seçicilər fəal iştirak edəcək, Cənab İlham Əliyevə səs verəcəklər.

# Azərbaycanın xoşbəxt gələcəyi Heydər Əliyev siyasəti ilə bağlıdır

*Müsahibimiz Milli Məclisin səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun yap.org.az-a müsahibəsi*

***- Əhliman müəllim, ölkəmizin həyatında mühüm hadisə olan prezident seçkilərinin təbliğat-təşviqat mərhələsindəyik. Azərbaycan bu seçkilərə hansı uğurlarla gedir?***

- Şübhəsiz ki, Azərbaycanın bugünkü uğurları Heydər Əliyev siyasəti ilə bağlıdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində qarşıdakı illər üçün hədəfləri açıqlayaraq söylədiyi bu fikirləri yada salmaq istərdim: “Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərək mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.” Həmin vaxtdan ötən dövrdə Azərbaycanın əldə etdiyi uğurlar göz önündədir. Cənab İlham Əliyevin 2008 və 2013-cü illər prezident seçkilərində qələbəsini yenidən təmin etməsini şərtləndirən əsas amil də məhz hər bir vədini konkret əməli işi ili təsdiqləməsi olmuşdur.

Artıq növbəti prezident seçkilərinin ərəfəsindəyik. Hər bir seçki prosesi arxada qalan illərdə görülən işləri, əldə olunan uğurları nəzərdən keçirməyi zərurətə çevirir. 14 ildə Heydər Əliyev siyasətinin cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirdi. Hər bir inkişafın iqtisadiyyat üzərində qurulduğunu önə çəkən dövlət başçısı İlham Əliyev yeni mərhələdə özəl sektorun təkmilləşməsini prioritet məsələ kimi öndə saxladı. Qeyri-neft sektorunun inkişafı istiqamətində atılan davamlı addımlar öz müsbət nəticəsini verir. Statistik rəqəmlərə diqqət yetirək. Son 15 ildə iqtisadiyyat 3 dəfədən çox artıb. Azərbaycan dünyanın ən dinamik iqtisadi inkişafa malik ölkəsi kimi tanınıb və nüfuz qazanıb. Yoxsulluq 50 faizdən 5 faizə enib. Bir milyon 900 min yeni iş yeri yaradılıb. Əhalinin real gəliri 2,6 dəfə artıb. Bütün bunlar Heydər Əliyev siyasətinin uğurlarıdır. Ölkəmizin müdafiə qabiliyyəti möhkəmlənib, dövlət büdcəsindən bu sahəyə xeyli məbləğdə vəsait ayrılıb. Dövlətimizin siyasətində əhalinin sosial müdafiəsinin gücləndirilməsi xüsusi yer tutur. Cənab İlham Əliyev iqtisadi tərəqqiyə uyğun olaraq əmək haqlarının, pensiyaların artırılmasını qarşıya mühüm vəzifə kimi qoyur. Təkcə son aylarda imzalanan fərman və sərəncamlara diqqət yetirsək, “güclü dövlət, yüksək rifah” prinsipinin dövlət siyasətinin əsasında dayandığını aydın görərik. Dünyada iqtisadi və maliyyə böhranının baş verməsinə və nəticələrinin bu günə qədər davam etməsinə baxmayaraq, iqtisadiyyatın aynası kimi dəyərləndirilən dövlət büdcəsindən sosial sahəyə ayrılmalar azalmadı, əksinə bu vəsaitlər daha da artırıldı. Yeni dövlətimizin siyasəti sosialyönümlü, Azərbaycanın inkişafına yönələn siyasətdir ki, bu da öz bəhrəsini verir. İslahatların dövrün, zamanın tələblərinə uyğun olaraq təkmilləşməsi davamlı uğurlara yol açan əsas amillərdəndir.

Səhiyyə, təhsil sahəsində də böyük uğurlarımız vardır. Yaxın keçmişə nəzər salsaq, düşünməzdik ki, bu qədər xəstəxanalar, diaqnostika mərkəzləri tikilib istifadəyə veriləcək, ən əsası dünya standartlarına cavab verən avadanlıqlarla təchiz ediləcək. Son 15 ildə 642 tibb müəssisəsi istifadəyə verilib. Bu gün elə bir əməliyyat, müalicə üsulu yoxdur ki, onu ölkəmizdə həyata keçirmək mümkünsüz olsun. Xarici ölkələrdən gələn mütəxəssislər bizdə yaradılan şəraitə heyrətlənirlər.



Bu fikirləri təhsil müəssisələri haqqında da söyləyə bilərik. 3000-dən çox yeni məktəb binası tikilib istifadəyə verilib, eyni zamanda əsaslı təmir olunub. Ali təhsil müəssisələri həm kadr potensialını, həm də maddi-texniki bazasını genişləndirir. Elmin inkişafına göstərilən diqqət və qayğı davamlılığı ilə diqqət çəkir. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyasına göstərilən qayğını xüsusi qeyd etməliyik. Akademiyanın Elektron kitabxanasının istifadəyə verilməsi, həmçinin Akademiya şəhərciyinin abadlaşdırılması, Akademiyanın nəzdində fəaliyyət göstərən institutların maddi-texniki bazasının möhkəmləndirilməsi və digər mühüm işlər elmin inkişafına göstərilən diqqətdən qaynaqlanır. Son 15 ildə cənab İlham Əliyev bir neçə dəfə Milli Elmlər Akademiyasında olub, illik ümumi yığıncağında iştirak edib və tövsiyələrini çatdırıb. Ölkə Prezidentinin bu addımları Akademiyanın inkişafına böyük yol açır.

Uğurlarımız sırasında dövlət idarəçiliyi sahəsində atılan mühüm addımları qeyd etməliyik. Vitse-prezidentlik institutunun yaradılması, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması gələcəkdə ölkəmizdə idarəçiliyin daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacaq.

Azərbaycan sabitləşdirici faktor kimi nüfuz qazanıb. Təhlükəsizliyin, əmin-amanlığın təminatı hər bir ölkənin inkişafı üçün əsasdır. Sabitlik, əmin- amanlıq olmayan yerdə heç bir inkişafdan söhbət gedə bilməz. Necə yüzillik dövlətçilik təcrübəsi olan ölkələrdə yaşananlara diqqət yetirək. Azərbaycan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu möhkəm təməl üzərində addımlayır, sabit ölkə kimi yeri və rolunu möhkəmləndirir. Ölkəmizin beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsində də bu amilin rolu böyükdür.

Qeyd edim ki, ölkəmiz xarici siyasət sahəsində də mühüm uğurlara imza atıb. Təbii ki, bu günümüzü dünənimizlə, ən əsası müstəqilliyimizin ilk illəri ilə müqayisə etsək, böyük uğurların, Azərbaycanın dünya birliyində layiqli yer tutduğunun şahidi olarıq. Bu, bir faktdır ki, müstəqilliyimizin ilk illərində beynəlxalq aləmdə Azərbaycan haqqında heç bir məlumat yox idi, həqiqətlərimiz ermənilərin apardıqları yalan təbliğata uyğun olaraq dünya ictimaiyyətinə çatdırılırdı. Lakin ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı informasiya blokadasından xilas etdi. Uğurlu daxili və xarici siyasətin nəticəsi olaraq Azərbaycan bir dövlət olaraq öz varlığını təsdiqlədi, həqiqətlərimizin təbliği dövlət siyasətinin əsasına çevrilərək erməni yalanlarının ifşası istiqamətində ciddi addımlar atıldı. Son 14 ildən artıq zamanda ümummilli liderin müəyyənləşdirdiyi xarici siyasət kursunun cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı regionda və dünyada əsl söz sahibinə çevirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Bu, Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun göstəricisidir. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri ölkələr, xalqlar arasında dostluq körpüsü rolunu daha da möhkəmləndirdi. XXI əsrin layihəsi olan “Cənub Qaz Dəhlizi” Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyini bir daha təsdiqlədi. Ötən ilin sentyabrında “Yeni əsrin müqaviləsi” imzalandı. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə yeri və rolunun aydın ifadəsini yaradır.

Azərbaycanın iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsi xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də ədalətli həllinə gedən yolu yaxınlaşdırır. Beynəlxalq təşkilatların qərar və qətnamələrində dövlətimizin mövqeyi dəstəklənir, münaqişənin sülh yolu ilə həllinin vacibliyi qeyd olunur.

Sözsüz ki, bir sual çərçivəsində Azərbaycanın uğurlarını əhatə edə bilmərik. Reallıqlar göz önündədir. Heydər Əliyev yolu ölkəmizə davamlı uğurlar qazandırır. Cənab İlham Əliyevin arxada qalan illərin uğurlarına əsaslanaraq təsdiqlədiyi “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası, eyni zamanda davamlı inkişafa xidmət edən Strateji Yol Xəritələri növbəti illər üçün müəyyənləşdirilən hədəflərə aydınlıq gətirir. Əvvəldə də qeyd etdiyim kimi, həyata keçirilən siyasət dövlətimizin daha da qüdrətlənməsinə, möhkəmlənməsinə, dünya birliyinin layiqli üzvü kimi nüfuz qazanmasına xidmət edir. Bu illər ən əsası müstəqilliyimizin daha daha da möhkəmlənməsi, müstəqil siyasətimizin qazandırdığı uğurlarla yadda qalıb. Dövlət başçısı İlham Əliyev ən yüksək tribunalardan dövlətimizin mövqeyini böyük inam və qətiyyətlə bəyan edib.

Uğurlarımız çoxdur və eyni zamanda davamlıdır. Bu isə öz növbəsində yeni-yeni hədəflərin müəyyənləşdirilməsini şərtləndirir. Bu gün bizim eganə problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Xalqımız tam əmindir ki, dövlətimizin uğurlu siyasəti, diplomatik mübarizədə qələbəmiz, həmçinin ordumuzun gücünün, qüdrətinin artması fonunda bu problemimiz də öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, Azərbaycan daha möhtəşəm uğurlara imza atacaq.

***- Müstəqilliyimizin daha da möhkəmlənməsinə, dövlətçilik ənənələrimizin inkişafına mühüm töhfələrdən biri də cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan edilməsidir...***

- Əlbəttə, bu, çox vacib məsələdir. Azərbaycanın müstəqil dövlət kimi elan olunması Cümhuriyyətlə bağlıdır. O dövrdə Azərbaycan xalqının ən layiqli övladları Cümhuriyyəti yaradıblar. Ömrünün qısa olmasına baxmayaraq, ADR bu günümüz üçün mühüm addımlar atıb. Dövlət başçısı İlham Əliyevin məlum Sərəncamında da bu məqamlar öz əksini tapıb. Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə 1991-ci il oktyabrın 18-də bərpa etsə də xalqımız bu sevinci ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra yaşadı. Bu gün böyük inamla qeyd edirik ki, Azərbaycanın uğurları ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət son 15 ildə uğurla davam edir. Ümummilli lider hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan adlı dövlətin varlığından danışmaq mümkün deyildi. Ölkənin parçalanması, dağılması reallığa çevrilirdi. Dahi şəxsiyyət Heydər Əliyev müasir, müstəqil Azərbaycanı quraraq, bugünkü uğurlarımıza geniş yol açdı. Ulu öndərin qeyd etdiyi kimi, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Dövlət başçısı İlham Əliyevin 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etməsi müstəqillik tariximizin ayrı-ayrı mərhələlərinə işıq salır. Milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə ölkə Prezidentinin imzaladığı Sərəncam diqqəti bir amilə yönləndirir. O çətin dövrdə Azərbaycanın müstəqilliyini elan etmiş fədakar insanlar heç vaxt unudulmamalıdır. Bu il eyni zamanda müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyidir. Ümummilli liderin hakimiyyətinin hər iki dövründə xalqımızın, dövlətimizin bu günü və gələcəyi üçün gördüyü işlərin, göstərdiyi xidmətlərin miqyası böyükdür. Parlamentin də 100 illiyi. Bir sözlə, yubileylər ili kimi xarakterizə olunan 2018-ci il Azərbaycan tarixinə bir uğur səhifəsini-prezident seçkilərini yazacaq. Əminəm ki, prezident seçkiləri uğurla başa çatacaq, silsilə xarakterli yubiley tədbirlərimiz xoş əhval- ruhiyyə ilə yüksək səviyyədə təşkil olunacaq.

***- Əhliman müəllim, tarixi müstəqil Azərbaycanın tarixi ilə üst-üstə düşən Yeni Azərbaycan Partiyasının davamlı uğurlarımıza töhfələrini necə qiymətləndirirsiniz?***

- Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edir, inamla irəliləyir. Partiyanın sıraları kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmlənir. Gənclərimizin partiyaya axını böyükdür. Dövlətimizin başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında bir daha keçilən yolun, əldə olunan uğurların, partiyanın Azərbaycanın bu günü və gələcəyi üçün gördüyü işlərin aydın mənzərəsini yaratdı. YAP daim dövlətimizə, xalqımıza xidmət etmiş, tutduğu yola sadiqliyi ilə cəmiyyətdə nüfuzunu günbəgün artırır. Populizmdən uzaq olan Yeni Azərbaycan Partiyasının Azərbaycanın inkişafına töhfələri göz önündədir. Bircə faktı qeyd etmək kifayətdir ki, ölkədə keçirilən seçkilərdə hər zaman uğur qazanan partiyaya xalqın dəstəyi, inamı məhz həyata keçirdiyi siyasətə əsaslanır. Gerçəkliklərin bələdçisi olan xalq görülən işlərə, həyata keçirilən siyasətə dəstəyini ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşməklə nümayiş etdirir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Bu tezisin davamı olaraq cənab İlham Əliyev bildirir ki, YAP nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatıdır.

***- 11 aprel prezident seçkiləri tariximizə hansı səhifəni yazacaq?***

- Əminəm ki, Azərbaycan xalqı seçkilərdə cənab İlham Əliyevə səs verəcək. Cənab İlham Əliyevə səs verməklə müstəqilliyimizin daha da möhkəmlədirilməsinə, bütövlükdə ölkəmizin inkişafına səs verəcəyik. Çünki Azərbaycanın xoşbəxt gələcəyi Heydər Əliyev siyasəti ilə bağlıdır. Bu siyasətin lay iqli davamçısı cənab İlham Əliyev 11 aprel prezident seçkilərində yenidən qələbəsini təmin edərək, Azərbaycanın davamlı inkişafının təminatçısı kimi təkmil islahatları ilə möhtəşəm uğurlarımızın miqyasını daha da genişləndirəcək. Seçimlərində müstəqil olan xalqımız ağı qaradan seçməyi çox yaxşı bacarır. Əminəm ki, 11 aprel prezident seçkiləri seçicilərimizin yüksək fəallığı şəraitində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin qələbəsi ilə tarixə yazılacaq.

# Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin davamlı olmasını istəyir

## *Milli Məclisin deputatı Əsabil Qasımovun yap.org.az-a müsahibəsi*

***- Əsabil müəllim, Azərbaycan mühüm ictimai-siyasi hadisə ərəfəsindədir, ölkəmizdə aprelin 11-də prezident seçkiləri keçiriləcək. Seçkiöncəsi mühiti necə qiymətləndirirsiniz?***

- Yüksək beynəlxalq nüfuza və özünəməxsus inkişaf modelinə malik olan Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkiləri öncəsi ictimai-siyasi vəziyyət sabitdir. Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir, hər bir namizədə bərabər şərait yaradılıb, siyasi mübarizə üçün rəqabət mühiti mövcuddur və bütün bunlar seçkilərin demokratik, şəffaf və ədalətli keçəcəyini deməyə əminlik yaradır. Ümumiyyətlə, təxminən 27 illik müstəqillik tarixinə malik olan Azərbaycanın zəngin və mütərəqqi seçki təcrübəsi mövcuddur Bu zamana qədər ölkəmizə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri ədalətli, şəffaf və demokratik şəraitdə baş tutub və beynəlxalq miqyasda təqdirlə qarşılanıb. Hazırkı reallıqlar, yeni mövcud şərait məhz aprelin 11-də keçiriləcək prezident seçkilərinin də demokratik standartlara uyğun baş tutacağını - Azərbaycanın demokratik ənənələrə sadiq qalacağını söyləməyə əsas verir.

Ölkəmizdə seçkiöncəsi şəraiti səciyyələndirən ən mühüm amillərdən biri məhz ictimai-siyasi sabitlikdir. Cənab İlham Əliyevin 2003-cü ildən indiyə qədər ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan sabitlik adası kimi səciyyələndirilib. Bu gün Azərbaycanı bir çox ölkələrdən fərqləndirən xüsusiyyət məhz ictimai-siyasi sabitlikdir. Sabitliyi şərtləndirən amil isə cənab İlham Əliyev tərəfindən uğurlu daxili və xarici siyasət kursunun həyata keçirilməsidir. Azərbaycanda həyata keçirilən daxili siyasət məhz sosialyönümlü olması ilə fərqlənir. Ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində vətəndaşların mənafeyi dayanır. Bütün sosial layihələr uğurla icra olunur, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Xarici siyasət sahəsinə gəldikdə isə, uğurlu və balanslaşdırılmış siyasət nəticəsində Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, ölkəmiz regionda sabitləşdirici amil kimi çıxış edir. Bütün bu nailiyyətlər isə Azərbaycanda ictimai-siyasi sabitliyi şərtləndirir.

Azərbaycan prezident seçkilərinə sabitlik şəraitində gedir və qazanılan bütün uğurlar xalqın alternativsiz namizədi olan cənab İlham Əliyevin növbəti möhtəşəm və parlaq qələbəsini təmin edəcək mühüm faktorlardan biri olacaq.

***-Azərbaycan vətəndaşları cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti qiymətləndirərkən iqtisadi inkişaf amilini əsas götürür. Ölkəmizin ötən müddət ərzində iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlarla bağlı nə deyə bilərsiniz?***

-Azərbaycan 2003-cü ildən etibarən sürətli iqtisadi inkişaf mərhələsinə



qədəm qoyub. Neft gəlirlərindən səmərəli istifadə olunaraq qeyri-neft sektorunun inkişafı təmin olunub, bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və Azərbaycan qüdrətli dövlətə çevrilib. Statistik göstəricilər Azərbaycanın son 14 il ərzində cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli inkişaf mərhələsi keçdiyini bariz şəkildə əks etdirir. Son 14 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. 2004-2017-ci illərdə Azərbaycanda istehsal edilən ümumi daxili məhsulun (ÜDM) həcmi 3,2, sənaye məhsulu istehsalı 2,6, kənd təsərrüfatı məhsulu istehsalı 1,7, büdcə gəlirləri 13,5 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artıb. 2004-cü ildə Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollar idi, hazırda isə 42 milyard dollara bərabərdir. Orta aylıq nominal əmək haqqı 6,8, minimum əmək haqqı 12,9 dəfə artım təşkil edib. İşsizlik səviyyəsi 5, yoxsulluq isə 5,4 faizə enib. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin real nəticələridir. Son 14 ildə respublika üzrə təxminən 1,9 milyon yeni iş yerinin yaradılması insanların sosial vəziyyətinin yaxşılaşmasında mühüm amil kimi çıxış edir. Hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb. Son 14 ildə qəbul edilən müvafiq Dövlət proqramları çərçivəsində qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına və digər sosial ehtiyaclarının ödənilməsinə 6,2 milyard manatdan çox vəsait sərf olunub. 50 min ailə və ya 250 min nəfərdən çox qaçqın və məcburi köçkün yeni mənzillərlə təmin edilib. Bütün bunlar Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin sosial məzmunlu olmasına dəlalət edir və bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində məhz vətəndaşların mənafeyi dayanır. Buna görə də Azərbaycan cəmiyyəti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir və bu siyasətin davamlı olmasını istəyir.

***-Son 14 il ərzində həyata keçirilən siyasətin uğurlu nəticələrindən biri də regionların sosial-iqtisadi inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edilməsidir. Bu sahədə görülən işlər və əldə edilən nəticələr barədə nə söyləmək olar?***

-Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən birini regionların sosial-iqtisadi inkişafı təşkil edir. Dövlətimizin başçısının fərmanları ilə təsdiqlənərək 2004-cü ildən indiyədək uğurla reallaşdırılan müvafiq regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında nəzərdə tutulan konkret vəzifələr müvəffəqiyyətlə yerinə yetirilib. Bunun əyani göstəricisi bölgələrin hərtərəfli və dinamik inkişafıdır.

Cənab İlham Əliyev 2003-cü ildə regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı beşillik Dövlət proqramlarının qəbul edilməsi təşəbbüsünü irəli sürmüşdü və Prezident seçildikdən sonra bu təşəbbüsü reallaşdıraraq bölgələrin inkişafına xidmət edən müvafiq Dövlət proqramlarının icra olunmasını təmin etdi. Cəban İlham Əliyevin müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırıldı və müsbət göstəricilər əldə olundu. 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramı isə hazırda yerinə yetirilir və qazanılan uğurlar göz qabağındadır. İlk Dövlət Proqramının icrasına başlanmasından etibarən regionlarda 70 mindən çox müəssisə fəaliyyətə başlayıb, bölgələrdə ümumi məhsul buraxılışı əhəmiyyətli dərəcədə artıb. 2004-cü ildən etibarən Dövlət proqramlarının icrasına bütün mənbələr hesabına 50 milyard manatdan çox vəsait yönəldilib, dövlətimizin başçısı tərəfindən bölgələrdə yol infrastrukturunun yenilənməsinə, müxtəlif layihələrin reallaşdırılmasına və abadlıq-quruculuq işlərinin aparılmasına, eləcə də digər məsələlərə əlavə maliyyə vəsaitlərinin ayrılmasına dair çoxsaylı sərəncamlar imzalanıb.

***-Əsabil müəllim, cənab İlham Əliyevin rəhbərliyi altında bu zamana qədər əldə edilən çoxsaylı nailiyyətlər və ölkəmizin dayanıqlı inkişafının təmin olunması gələcəyə dair nikbin proqnozlar ifadə etməyə imkan verir. Gələcək hədəflər və inkişaf perspektivləri barədə fikirlərinizi bilmək istərdik...***

-Azərbaycan 2003-cü ildən bu günə qədər hərtərəfli inkişaf yolu keçib, bütün sahələrdə çoxsaylı uğurlar əldə olunub. Bütün bunlar gələcəyə optimist baxmağa əsas yaradır. Əminliklə demək olar ki, dövlətimizin başçısının rəhbərliyi ilə islahatlar növbəti illərdə də uğurla davam etdiriləcək, qarşıya qoyulan bütün məqsədlərə çatmaq mümkün olacaq. Növbəti mərhələdə də qeyri-neft sektorunun inkişafı, iqtisadi və maliyyə sisteminin sabitliyinin təmin olunması, biznes mühitinin daha da yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi və digər istiqamətlərdə strateji əhəmiyyətli tədbirlər davam etdiriləcək.

Nəticədə, sadalananlar Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi ilə inkişaf yolunda əmin addımlarla irəlilədiyini göstərir. Buna görə də bu inkişafın davamlı olmasını istəyən Azərbaycan vətəndaşlarının yeganə seçimi məhz cənab İlham Əliyevdir!

## Şabranlılar prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklər





***Yeni Azrəbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Vələsli, Əmirxanlı, Ağbaş və Çölquşçu kənd seçiciləri ilə görüş keçirib.***

Görüşlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsinin sədri Mehdi Balabəyov Cənab İlham Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi naminə misilsiz xidmətlərindən danışıb.

Rayon şöbəsinin sədri seçiciləri bu tarixi prosesdə fəal iştirak etməyə, aprelin 11-də seçki məntəqələrinə gedərək, Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış, xalqımızın alternativsiz lideri Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşlərdə YAP Şabran rayon təşkilatının şura üzvləri Tofiq Əmrahov, Nizaməddin Əliyev və Seymur Qədəşov çıxış edərək, bildiriblər ki, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib və yeniləşib: "Bu dövrdə əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib və bu yüksəlişi hər bir vətəndaş öz həyatında hiss etməkdədir. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin nəticəsidir".

Çıxış edənlər seçiciləri aprelin 11-də seçki məntəqələrinə gedərək, YAP-ın namizədinə səs verməyə çağırıblar.

***NƏZAKƏT***

## İsrail səfiri: "Prezident seçkiləri Azərbaycan xalqının iradəsini nümayiş etdirəcək"



Azad və müstəqil seçkilər demokratik cəmiyyətdə çox vacibdir. Azərbaycan konstitusiyasının bütün vətəndaşlara seçki hüququ verməsi də çox əhəmiyyətlidir. Mən inanıram ki, seçkilər Azərbaycan xalqının iradəsini nümayiş etdirəcək. AZƏRTAC xəbər verir ki, bu fikirləri sechki-2018.az saytına açıqlamasında İsrailin Azərbaycandakı səfiri Dan Stav bildirib. Diplomat demokratik ölkələrdə seçkilərin çox vacib olduğunu bildirərək deyib: "Seçkilər insanlara düşüncələrini ifadə etmək və gələcək illər üçün öz nümayəndələrini və liderlərini seçmək imkanı verir. Azərbaycanda Prezident xarici siyasəti müəyyənləşdirir və daxili siyasətin icrasında güclü rol oynayır və buna görə prezident seçkiləri ölkə üçün mühüm əhəmiyyət kəsb edir".

***Həətta kütləvi ictimai qınağın mövcudluğuna baxmayaraq, sosial şəbəkələrdə söyüş və təhqirlərini davam etdirən adları bəlli "siyasi mühacirlər", eləcə də, onların ölkədaxili və ölkəxarici trolları sanki apardıqları "mübarizədə" uduzduqlarının fərqinə varmağa başlayıblar. Görünür, bu səbəbdən, günü-gündən aqressivləşir, təhqir saylarını artırır və bu kimi vasitələrlə təlimatlandırıldıqları mərkəzlər qarşısında "üzüağ" görünmək üçün son cəhdlərini göstərirlər. Söz yox ki, istər Azərbaycanda, istərsə də xarici ölkələrdə yaşayan və fəaliyyət göstərən sağlam düşüncəli soydaşlarımız müəyyən qaranlıq dairələrin nökərlərinə çevrilmiş belə ünsürləri doğru yola səsləsələr də, təəssüf ki, bənzər çağırışlar nəticəsiz qalır. Bu amil isə qarşı tərəfin, həqiqətən də, millət, xalq, Vətən, dövlət maraqlarından nə qədər uzaq düşdüklərini növbəti dəfə sübuta yetirmiş olur. Maraqlı məqamlardan biri də bu gün özlərini "millət fədaisi" kimi zorla ictimai rəyə sırıyan müxalifət "liderlərinin" "söyüş layihəsi" deyilən məsələ ətrafında susqunluqlarıdır. Hərgah onlar özlərini bu qədər "ziyalı" hesab edirlərsə, ən azından, öz tör-töküntülərinə söyüş söyməməyi təhqir etməməyi, etik cəhətdən siyasi mübarizə aparmağı tövsiyə edərdilər. Əks halda, belə anlaşılır ki, Əli Kərimli, Cəmil Həsənli və s. kimi "liderlər" özləri bu planın təşkilatçıları sırasında yer alırlar. Lakin yalnız onlarmı?***



Prezidenti təhqiretmə kampaniyası kimi deyil, daha geniş kontekstdə baxıram. Bu proses, əslində, böyük kampaniyanın tərkib hissəsidir və bu gün başlamayıb, sözügedən kampaniya məqsədli şəkildə təşkil olunmuş və müxtəlif mərkəzlərdən, o cümlədən, ermənilərə bağlı olan müəyyən qüvvələr tərəfindən idarə olunur".

# "Söyüş layihəsi" - kimlər və necə yararlanır?

## *Sosial şəbəkələrdə ictimai qınaqlar artsa da...*

### Sənan Nəcəfov: "Bir dəfə bir tədbirdə, erməni diasporunun rəhbəri, panel iştirakçısına dedi ki..

Bu arada sosial şəbəkələrdə "söyüş layihəsi" adı altında anti-Azərbaycan xarakterli qüvvələrə canfəşanlıqla qulluq edənlərə ictimaiyyətin ziyalı kəsimindən də çoxsaylı qınaqlar səslənməkdədir. Xüsusilə, Qeyri-Hökumət Təşkilatlarında təmsil olunanlar tərəfindən olduqca maraqdoğurucu detallara toxunulur, Vətən xainlərinin ifşası istiqamətində ciddi arqumentlərlə çıxışlar olur.

Misal üçün, QHT xəbər saytının baş redaktoru Sənan Nəcəfovun "Facebook" sosial şəbəkəsindəki statusunda qeyd olunur: "Görün nə vəziyyətdəyik...

Dostlardan biri yazıb: mən Avropada şahidi olmuşam. Bir dəfə bir tədbirdə, erməni diasporunun rəhbəri, panel iştirakçısına dedi ki, əgər sizin Azərbaycanda tanıdığınız, sizə yaxın olan insanlar varsa, adlarını verin, biz onların Avropaya gəlmələrinə kömək edək. Hətta misal da çəkdi, dedi ki, bir nəfər Qarabağın müstəqilliyini tanıyan adamı, ölkədən cıxarıb və hazırda 3-cü ölkədə (adını çəkmədi) xüsusi mühafizə altında saxlayırlar".

Göründüyü kimi, bu gün Avropada oturub on minlərlə kilometr uzaqlarda "ədalət carçılığı" edərək, öz çirkin antidövlətçi əməlləri ilə "kişilik mücəssəməsi" sərgiləyənlər, ya bilavasitə erməni lobbisi ilə əlbir olurlar, ya da erməni lobbisinin təsiri altında fəaliyyət göstərən müxtəlif ictimai təşkilatlarla işləyirlər. Artıq bu kimi faktlar kifayət qədərdir və zaman-zaman ictimaiyyətin diqqətinə media vasitəsi ilə çatdırılıb.

### Sahib Məmmədov: "Bu şəbəkənin üzvləri hələ bir neçə il öncə, Avropaya saxta sənədlərlə gedən insanları səfərbər etməyə başladılar"

Digər QHT təmsilçisi və rəhbəri Sahib Məmmədovun bu ətrafdakı fikirləri maraqdoğurucudur. O öz statusunda yazır ki, Azərbaycan əleyhinə fəaliyyət göstərən "siyasi mühacirlərə" ölkəmizin Avropa İttifaqı ilə, eləcə də, dünyanın aparıcı ölkələri ilə münasibətlərinə xələl vurmaq sifarişi verilib. SİTAT: "Məqsəd, təbii ki, Azərbaycanın Avropa İttifaqı və dünyanın digər aparıcı ölkələri ilə əməkdaşlığına mane olmaqdır. Bilirsiniz ki, iri transmilli layihələr yalnız Azərbaycanın iradəsi ilə gerçəkləşmir, burada başqa dövlətlər də iştirak etməli və bəzən xarici banklar da maliyyələşməni həyata keçirməlidirlər. Əsl məqsəd, məhz bunların qarşısını almaq, ölkəmizin beynəlxalq təşkilatlardakı nüfuzunu aşağı salmaq və Azərbaycanın oradakı təmsilçiliyinə mümkün hallarda xitam vermək, beləliklə də, Ermənistanın Dağlıq Qarabağı işğal faktını "legitimləşdirmək" siyasəti həyata keçirməkdir. Yəni beynəlxalq aləmdə süni surətdə Azərbaycanın nüfuzu aşağı salındıqca, işğalçı Ermənistanın şansları genişlənir. Həmin "azərbaycanlılar" da, məhz bu məqsədlə səfərbər ediliblər. Bu, uzağa gedən bir layihədir və "söyüş aksiyası" da onun bir tərkib hissəsidir".

Buradan, həm də belə aydın olur ki, Avropadakı "siyasi mühacirlər", ilk növbədə, Dağlıq Qarabağın işğal faktının beynəlxalq aləmdə legitimləşdirilməsi üçün müvafiq məbləğlərdə maliyyə dəstəyi alıblar və əsas olan digər məqsəd, işğalçı Ermənistanı dirəndiyi dalandan çıxarmaq məsələsidir ki, Vətən xainləri bu cür alçaldıcı yollara da getməkdədirlər.

S.Məmmədov "söyüş layihəsi" ətrafında da status paylaşaraq qeyd edir: "Əslində, sosial şəbəkələr vasitəsiylə Avropadakı bəzi mənəviyyatsız 5-6 insanın "söyüş layihəsi" adı altında həyata keçirdiyi kampaniyalar anti-Azərbaycan xarakteri daşıyır və dövlət əleyhinə yönələn çirkin prosesin bir elementidir. Mən bu prosesə ayrı-ayrı görkəmli şəxsləri, dövlət xadimləri və

"Bu şəbəkənin üzvləri hələ bir neçə il öncə, Avropaya saxta sənədlərlə gedən insanları səfərbər etməyə başladılar"-deyə xatırladan S.Məmmədov burada ölkədə fəaliyyət göstərən dağıdıcı müxalifət "liderlərinin" rəhbərlik etdikləri partiyalar vasitəsi ilə insanlara saxta sənədlər vermələrinə eyham vurub və qeyd edib ki, ümumiyyətlə, bu çoxməqsədli layihənin əhəmiyyətli hissəsi Azərbaycanda hazırlanmışdı. Yəni buradakı radikal müxalifət dairələri vasitəsi ilə.

### "Bunlar müxtəlif adlar altında, o cümlədən, "hüquq müdafiəçisi", "araşdırmaçı jurnalist", "vəkil", "bloger" və hətta "dindar" adları altında gizlənsələr də, eyni məqsədə qulluq edir və eyni sifarişləri yerinə yetirirlər"

"Xaricdə yaradılan şəbəkənin tərkibinin çox hissəsi azərbaycanlılardan ibarətdir" yazan S.Məmmədov daha sonra qeyd edir: "Ən azı, üzdə olan fəaliyyətlərdə azərbaycanlılar önə çıxarılır. Şəbəkənin bir hissəsi də Azərbaycanda fəaliyyət göstərir. Bunlar müxtəlif adlar altında, o cümlədən, "hüquq müdafiəçisi", "araşdırmaçı-jurnalist", "vəkil", "bloger" və hətta "dindar" adları altında gizlənsələr də, eyni məqsədə qulluq edir və eyni sifarişləri yerinə yetirirlər. Bu da, əlbəttə ki, həmin şəbəkənin bir layihəsidir. Bu şəbəkənin "görkəmli" nümayəndələrinin kimlərdən ibarət olduğu bəllidir. Şəbəkəni idarə edənlərin bir hissəsi hazırda Moskvada, digər bir hissəsi Haaqa, Praqa və Almaniyada yerləşən mərkəzlərdə fəaliyyət göstərir. "Söyüş layihəsi"nə cəlb edilənlərə çirkli iş tapşırılsa da, daha "elit" hissə Avropa İttifaqında, Avropa Şurasında, ATƏT strukturlarında və BMT-də keçirilən tədbirlərdə ermənilərin təşkil etdikləri əlavə tədbirlərdə (side event) paneldə otururlar və anti-Azərbaycan tədbirləri idarə edirlər. Bir qism isə müxtəlif ölkələrin xüsusi xidmət orqanlarının yaratdığı "araşdırıcı" mərkəzlərlə əməkdaşlıq edir, yalan laboratoriyalarında anti-Azərbaycan materialları hazırlamaqla məşğul olur. Nəhayət, başqa bir qism ideoloji təxribatla məşğul olaraq, Avropada və başqa yerlərdə KİV-lər yaradıb. İrəvanda separatçı radio, "Meydan" TV, "Obyektiv" TV və müxtəlif KİV-lər bu hissənin fəaliyyətinin bariz nümunəsidir. "Söyüş layihəsi" də bu gün həmin şəbəkənin fəaliyyətinin bir növüdür. Ona görə də, məsələyə sadə prizmadan yanaşmağın tərəfdarı deyiləm ki, onlar yalnız öyrədilmiş müəyyən adamlardır və belə bir çirkli işlə məşğuldurlar. Çünki bu layihə bitsə də, yeniləri ortaya çıxacaq".

### Fatimə Hacıbəyli: "Atam balası, qəhrəmanlıq ər meydanında olur. Elə hünərlisinizsə, çıxın ortaya, mərdi-mərdana sözünüzü deyin. Yoxsa xaricdə oturub, "Facebook" və ya "Youtube" vasitəsilə video yaymaqla özünüzü cəsur sanmayın"

Digər QHT rəsmisi Fatimə Hacıbəyli xarici ölkələrdə sifarişlər əsasında təlimatlar həyata keçirənlər barədə maraqdoğurucu status paylaşıb. Həmin statusu da təqdim edirik: "Təəssüf ki, xaricdə yaşayan bəzi şəxslər Azərbaycan dövlətinə və hakimiyyətinə qarşı çirkin kampaniya aparır. Mübarizəni sivil yolla aparmaq lazımdır. Ancaq təhqir və söyüşlə mübarizə aparılmır. Cılız insanlar təhqir əl atırlar. Onlar elə bilir ki, Azərbaycan dövlətini təhqir etməklə, nəsə əldə edəcəklər. Xeyr, o insanlar itirə-itirə gedirlər. İlk olaraq, onlar öz mənliklərini, şərəfini, vətənini itiriblər və itirəcəklər də.

Xaricdə kimlərinsə sifarişinə sığınan şəxslər özlərini qəhrəman sayırlar. Sosial şəbəkədə kimlərisə təhqir etmək bunlar üçün qəhrəmanlıq və kişilik sayılır. Atam balası, qəhrəmanlıq ər meydanında olur. Elə hünərlisinizsə, çıxın ortaya, mərdi-mərdana sözünüzü deyin. Yoxsa xaricdə oturub, "Facebook" və ya "Youtube" vasitəsilə video yaymaqla özünüzü cəsur sanmayın".

F.Hacıbəyli statusunun sonunda Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun bu yaxınlarda ictimailəşdirdiyi fikirlərinə toxunub: "Bu günlərdə, Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sözügedən məsələyə toxunaraq, haqlı olaraq qeyd edib ki, biz azərbaycanlıyıq, öz adət-ənənəmiz, əxlaq və şərəf ölçülərimiz var. Siyasi mübarizəni də həmin çərçivədə, cəmiyyətimizə, vətəndaşlarımıza utanc gətirməyəcək formada, milli-mənəvi və əxlaqi dəyərlərimizə uyğun şəkildə aparmalıyıq".

Lakin göründüyü kimi, bu qədər kütləvi ictimai qınaqlardan sonra da sakitləşməyən avropalı "siyasi mühacirlər" Vətənə xəyanət etmələrində israrlı görünürlər. Ancaq unudurlar ki, bir gün nə zamansa, həmin əməllərinə görə mütləq cavab verməli olacaqlar. Ya Azərbaycan xalqı qarşısında, ya da Allah...

***Rövşən NUURƏDDİNOĞLU***

# Tural Sadıqlı - cinayətkar şəcərənin xain övladı

## Yaxud gendən gələn dəyərsizlik



***Avropada "siyasi mühacir" adı altında yaşayan və müəyyən qaranlıq dairələr tərəfindən təlimatlandırılan, eləcə də, Azərbaycan dövlətinin və xalqının maraqları əleyhinə fəaliyyət göstərən bir qrup Vətən xaininin son günlər sosial mediada qohumlarının təqib olunması haqqında kampaniya aparılmaları növbəti dəfə onlar barədə faktların üzə çıxmasına səbəb olur. Daha doğrusu, özlərini az qala "peyğəmbər övladı" olaraq ictimai rəyə sırımağa çalışan bu ünsürlərin, əslində, "hansı yuvanın quşu" olmaları növbəti dəlillərlə sübuta yetirilir. Misal üçün, dağıdıcı müxalifət mediasında, eyni zamanda, həmin düşərgəyə yaxın sosial şəbəkə səhifələrində Tural Sadıqlının atası Ələvsət Sadıqlı "iki vətənpərvər, intellektual gənc böyütmüş ziyalı" obrazında təqdim olunur. Demə, Ə.Sadıqlı qədər ölkədə ikinci şəxs yoxuymuş ki, belə övladlar yetişdirsin və s...***

### Bu "vətənpərvər" nəslin, şəcərənin kökü quldurluq, narkotika, adam oğurluğu və məişətdə, ictimaiyyət arasında pozğun həyat tərzi üzərində formalaşıb

Onların ailələri barədə tükürpədici faktlar üzə çıxarkən, necə deyərlər, adam lap mat-məəttəl qalır. Çünki bu "vətənpərvər" nəslin, şəcərənin kökü quldurluq, narkotika, adam oğurluğu və məişətdə, ictimaiyyət arasında pozğun həyat tərzi üzərində formalaşıb. Ümumiyyətlə, T.Sadıqlının hazırkı davranışları onun genindən gələn dəyərsizliklə əlaqələndirilə bilər. El dili ilə desək, qanıpozuqluqdan! Elə isə, keçək əsas və danılmaz əlahəzrət faktlara...

T.Sadıqlının və qardaşı Elgiz Sadıqlının ata xətti ilə babaları Əhəd Sadıqov 1951-ci ilin oktyabrında azyaşlı qızı zorladığına görə, azadlıqdan məhrum edilib və layiqli cəza alıb. Üstəlik, bu çirkin əməlinə görə, həbsxananın yazılmamış qanunları baxımından, dustaqlar tərəfindən cəzalandırılıb.

Verilən "dərsdən" nəticə çıxarmayan Ə.Sadıqov ikinci dəfə 1961-ci ildə quldurluğa, üçüncü dəfə isə, 1969-cu ildə başqasına ağır bədən xəsarətləri yetirməyə görə həbsə alınıb.

Tural və Elgizin ana xətti ilə babaları da dinc adam olmayıb. Belə ki, Səməd Hümbətov adlı babaları da "repressiya qurbanı" olub, yəni 1976-cı ildə törətdiyi cinayət hadisəsinə görə həbs olunub. T.Sadıqlının qardaşı Elgiz isə 2015-ci ildə narkotik maddədən istifadəyə görə həbs olunub. Onu da xatırladaq ki, 2015-ci ildəki həbsi Elgizin ilk məhkumluğu olmayıb. O, ilk dəfə 1998-ci ildə, hələ qardaşına görə "siyasi əzabkeş" olmaq ağlının ucundan keçmədiyi zamanlarda məhkum edilmişdi. O, Vətənə hərbi xidmətdən boyun qaçırdığına - fərariliyə görə Bakı qarnizonunun hərbi tribunalı tərəfindən 2 il azadlıqdan məhrum edilib. Göründüyü kimi, bu şəcərədə əzəldən Vətənə doğru-dürüst xidmət etmək marağı olmayıb və bu gün ortada olan faktlar, xüsusilə, T.Sadıqlının Avropadakı "vətənpərvərliyi" özü-özlüyündə həmin amilləri isbatlamaqdadır.

Onu da qeyd edək ki, Elgiz növbəti dəfə, həqiqətən də, qardaşına görə həbsdə yatıb. Belə ki, Ağır Cinayətlərə Dair İşlər Üzrə Məhkəmənin (hakim Nüşabə Ağayeva) 29 iyun 2007-ci il tarixli hökmündən çıxarışda deyilir: "Sadıqov Elgiz Ələvsət oğlu Cinayət Məcəlləsinin 62-ci maddəsi tətbiq olunmaqla beş il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşdur. Cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməsi müəyyən edilmişdir. Cəzaçəkmə müddətinin əvvəli 26 fevral 2007-ci il tarixdən hesablanılmışdır".

Xatırladaq ki, həmin maddə adam oğurluğundan (!) bəhs edir, konkret halda isə, söhbət bəlli səbəblərə görə, adını yazmaq istəmədiyimiz bir qızın zorla qaçırılmasından gedir. Beləliklə, nəvələrin baba yolu ilə getmələri, bu xüsusda da özünü kifayət qədər sübuta yetirir. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyasının 26 may 2009-cu il tarixli 1(102)-266/09 qərarında deyilirdi: "Onun əməli CM-nin 29, 144.2.3-cü maddəsi ilə düzgün tövsif olunmuşdur. Həmin maddə ilə məhkəmə E.Ə.Sadıqova cəza təyin edərkən, barəsində CM-nin 62-ci maddəsini tətbiq edib maddənin sanksiyasında nəzərdə tutulmuş aşağı həddən də aşağı cəza təyin edilmişdir".

Qeyd edək ki, Sadıqovların məcburi köçkün ailəsi olması, bu cinayət işi üzrə Elgizin doğma qardaşı Turalın da eyni maddə ilə məhkum edilməsi, ailəsinin olduqca ağır vəziyyətdə yaşaması müstəsna hal kimi qiymətləndirilmiş və onun barəsində azadlıqdan məhrumetmə cəzası beş ildən üç ilə endirilmişdi.

Sadıqovlara yaxın şəxslər bu humanist addımın atılmasına qızın ailəsinin səbəb olduğunu deyirlər. Daha doğrusu, Sadıqovlardan birinin adına ləkə saldıqları qızla ailə quracağı vəd edildiyindən, qız belə cinayətlərdə ağırlaşdırıcı hal kimi nəzərə alınacaq ifadə verməmişdi.

### Kirli reputasiyalarla BDU-dan NDU-ya və...

Nəticədə, bu kimi rüsvayçı hadisədən sonra BDU-dan qovulan Tural Sadıqlı yarımçıq qalmış təhsilini Naxçıvan Dövlət Universitetinin magistraturasında davam etdirərək, bu sistemdə təhsil ala-ala işə də götürülmüşdü. Fəqət, T.Sadıqlı bu dəfə də dinc dayanmayaraq, NDU-da təhsil alan Mona Zeydan adlı misirli qıza evlənəcəyini vəd edir. T.Sadıqlı NDU-nun yardımı ilə Misirə elmi ezamiyyəyə gedərkən, Mona ilə dini nikah kəsdirir. Amma bu "nikah" Azərbaycanda rəsmiləşdirilmir. Çünki o, eşq macəralarını davam etdirirdi. Artıq ali təhsil müəssisəsində onun barəsində kifayət qədər pozğun həyat tərzinə söykənən söz-söhbətlər yaranmışdı və oradakı şəxslər Sadıqlını qeyri-ciddi fərd kimi tanımağa başlamışdı. Nəticədə, Turalın pozğunçu və tərbiyəsiz hərəkətlərindən bezən tələbə qızların, eləcə də, universitetin gənc xanım əməkdaşlarının şikayətlərinə əsasən, o, NDU-dan da uzaqlaşdırılır.

"Asqıran ağıza (türkün sözü) tövbə yoxdur" prinsipinə sadiq qalan T.Sadıqlı öz çirkin əməllərinə o qədər dərindən aludə olmuşdu ki, həmin əməllərindən, nəinki əl çəkmək, hətta davam etdirmək barədə düşünürdü. Görünür, bu səbəbdən, o öz "macəralarını" bir daha reallaşdırmaq üçün yenidən Bakı şəhərinə geri dönür və bu dəfə AMEA-nın Şərqşünaslıq İnstitutuna elmi işçi götürülür. Əvvəl kazanovalıq portreti tamamlansın deyə sifətində kosmetik əməliyyat etdirir. Sonra isə siyasət meydanına baş vurur, Müsavat partiyası isə "perspektivli şərqşünas alim"i öz sıralarına qəbul edir. Tural partiyanın gənc və iddialı bir üzvü kimi meydanlarda, mitinqlərdə, sosial şəbəkələrdə fəallıq göstərir.

Tural isə ona humanistlik etmiş Şərqşünaslıq İnstitutunun rəhbərliyini ittiham edib işdən uzaqlaşır, sonra da Müsavatı opportunizmdə, hakimiyyətə satılmaqda ittiham edib, "yeni müxalifət" yaratmaq qərarına gəlir. "Yeni müxalifət" dediyi isə mühacirət etdiyi Almaniyada qurduğu Avropa Demokratiyaya Dəstək Alyansı adlı təşkilat və "Azad söz" adlı internet resursudur ki, gecə-gündüz Azərbaycan dövlətinin və xalqının maraqlarını, atributlarını təhqir edib, bu vasitə ilə siyasi biznes qurur. Nə deyəsən axı, cinayətkar şəcərədən, xain də övlad çıxar...

*Rövşən RƏSULOV*

# Rəşid Hacılı qanunsuz fəaliyyəti və xəyanətkarlığı ilə ictimai qınaq obyektinə çevrilib

***Son illər dağıdıcı müxalifətin təsiri altında olan bəzi QHT-lər öz nizamnamə məqsədlərindən kənara çıxaraq, siyasi fəaliyyətlə məşğul olmağa cəhd göstərir və yaxud ayrı-ayrı siyasi partiyaların mövqelərindən çıxış edirlər. Yəni ayrı-ayrı dağıdıcı partiyaların çirkin məqsədləri üçün onlara müəyyən dəstək verirlər. Bu cür hərəkətlər qanunla yolverilməzdir. O cümlədən, həmin QHT-lər özlərinin nizamnamə müddəalarına zidd olan fəaliyyət yolu tutmuş olurlar.***

### Media Hüququ İnstitutunun fəaliyyəti nizamnamə müddəalarına ziddir



Belə QHT-lərdən biri də Media Hüququ İnstitutu hesab olunur ki, fəaliyyəti QHT-lər haqqında qanunun tələblərinə ziddir. Ələlxüsus, bu QHT-nin rəhbəri Rəşid Hacılı öz fəliyyətini qanuna uyğun olmayan istiqamətdə qurmaqla yanaşı, Azərbaycan xalqının, dövlətin maraqlarına da ciddi zərər vurmaqla məşğuldur. Müxtəlif instansiyalarda öz fikirlərini, daha doğrusu, dezinformasiyalarını yaymaqla R.Hacılı ölkəmizin nüfuzuna xələl gətirmək niyyəti güdür. Hadisələri təhrif edərək, müxtəlif don geyindirən bu QHT rəhbərinin fəaliyyəti imicə təsir edə biləcək qanunsuzluqla yanaşı, həm də vətəndaşlıq mövqeyinə uyğun gəlmir. Daha doğrusu, bu əməlləri xəyanət və satqınlıq kimi dəyərləndirilir.

R.Hacılı öz müsahibələrində Azərbaycanın müstəqillik dövründən bu yana keçən illərdə ifadə və media azadlığı baxımından ən ağır dövrünü yaşadığını iddia edərkən, keçirilən mitinqləri, aksiyaları, hətta bu aksiyalara heç bir maneəçiliyin olmamasını niyə nəzərə almır? Görmürmü ki, müxalifət az qala ayda bir neçə dəfə mitinq keçirməsinə rağmən, heç bir maneə ilə qarşılaşmır? "Hal-hazırda Azərbaycanda azad şəkildə fəaliyyət göstərə bilən, hökuməti tənqid edə biləcək heç bir media orqanı yoxdur" dedikdə, nəzərə almırmı ki, ölkədə saysız-hesabsız media qurumları fəaliyyət göstərir ki, bunların içərisində, hətta ağlına gələni dərc edib tirajlayanlar da az deyil. Heç bir media orqanına, onun rəhbərinə "gözün üstündə qaşın var" deyən də olmur. Əksinə, bu tip media qurumları, hətta vəziyyətdən sui-istifadə edərək, etik normalar və qəbul edilmiş qaydalar sərhədini də keçərək, təhqirlə müşayiət olunan ifadələrə də yol verirlər. Bu gün Azərbaycan cəmiyyətində söz azadlığından sui-istifadə edərək, mediada təhqirlə davrananların qarşısını almaq məqsədi ilə həyəcan təbili çalınırsa, azad şəkildə fəaliyyət göstərə bilən bir media orqanı belə yoxdur demək, üçün R.Hacılı özünə necə haqq qazandıra bilir? İnternetin, virtual müstəvinin, sosial şəbəkələrin mövcud olduğu bir ölkədə söz azadlığı və ifadə azadlığının pozulmasını kim iddia edə bilər? Azərbaycanda sosial şəbəkə iştirakçıları istənilən informasiyanın əldə olunmasını, emalını və yayımını maneəsiz şəkildə həyata keçirə və barəsində, hətta şəxsi fikirlərini, şərhlərini belə ifadə edə bilərlər. Bu halda, hansısa QHT təşkilatının ölkədə söz azadlığına böhtanlar yağdırması absurddur və əlbəttə ki, inandırıcı ola bilməz. Bu gün, nəinki Azərbaycan cəmiyyəti, hətta bütün dünya ictimaiyyəti fərqindədir ki, artıq media azadlığının pozulmasından söhbət belə gedə bilməz və Hacılı kimi siyasiləşmiş QHT rəhbərlərinin, eyni zamanda, Media Hüququ İnstitutunun timsalında digərlərinin də mövqeyi qərəzlidir.

### Rəşid Hacılının məqsədi heç də hüquqi məsələlərə aydınlıq gətirmək deyil, bu kimi şər mücəssəmələrinin ssenarilərini reallaşdırmaqdır

Media Hüququ İnstitutunun və onun rəhbəri R.Hacılının da xaricdəki ağalara qulluq etdiyini, Azərbaycanın nüfuzuna xələl gətirməkdə maraqlı olan xaricdəki qüvvələrin tapşırıqlarını yerinə yetirdiyini təkzib etmək mümkün deyil. Bəlli olur ki, R.Hacılı insan hüquqları sahəsinə o qədər də uzaq olmayan keçmişdə, 2006-cı ildə gəlib və rəhbərlik etdiyi Media Hüququ İnstitutu 2006-2013-cü illər ərzində Amerika fondları NED və İREX-dən, Soros Fondundan, Böyük Britaniya səfirliyindən, Avropa Şurasından və ATƏT-dən üst-üstə 1 milyon 600 min manatdan çox qrant alıb. Alınan qrantları da qurumun rəhbəri olaraq R.Hacılı rahatlıqla mənimsəyib.

QHT rəhbərləri ayrılan vəsaitlərin mənimsənilməsini müxtəlif yollarla həyata keçirir və nəticədə, hesabat elə aparılır ki, təminatçıların, vəsaitləri ayıranların özləri də məəttəl qalırlar. Ağ və qara muhasibatlıq bu zaman əldəqayırma QHT-lərin karına gəlir. Bəzən, hətta əməkdaşlara bir məbləğə imza etdirib, ayrı məbləği almaq, yəni ikili maaşlara da rast gəlmək olur. Bir çox hallarda isə eyni ofisdə müxtəlif otaqların icarəsi üçün ayrılan qrantların mənimsənilməsi faktı da artıq sirr deyil. Guya ki, azadlıq uğrunda mübarizə aparan, özünü də hüquq institutunun rəhbəri, hüquq müdafiəçisi kimi göstərən R.Hacılının fəaliyyətində sadalanan bu qanunsuzluqlar yalnız bir neçə epizoddur.

Qeyd etdiyimiz kimi, xarici mənbələrdən, ələlxüsus, Soros fondundan maliyyə vəsaitləri, qrantlar alan və mənimsəyən bu QHT-nin, Media Hüququ İnstitutunun və onun rəhbəri R.Hacılının məqsədi heç də hüquqi məsələlərə aydınlıq gətirmək, ictimai həyatın ayrı-ayrı sahələrinə xidmət etmək deyil, yalnız Soros kimi şər mücəssəmələrinin ssenarilərini reallaşdırmaqdır. Bu fəaliyyət isə təbii ki, Azərbaycanın maraqları ilə üst-üstə düşə bilməz və görünən də odur ki, məqsədləri yalnız ölkənin imicinə və artan nüfuzuna xələl gətirməkdir.

Azərbaycan xalqının maraqlarına, dövlətçilik prinsiplərinə zidd olan hərəkətləri ilə R.Hacılı yalnız ictimai qınaq obyektinə çevrilə bilər və haqlı olaraq da, ictimaiyyət tərəfindən qınanılır. Xalq Azərbaycanın strateji inkişaf dinamikasını, demokratik və hüquqi dövlətçilik siyasətini dəstəkləyir və ölkəmizin əleyhinə fəaliyyət göstərən qüvvələrin fəaliyyətini, birmənalı şəkildə pisləyir. İstər Media Hüququ İnstitutu olsun, istərsə də ölkənin nüfuzuna xələl gətirməyə çalışan, qanuni fəaliyyətdən kənarlaşan digər QHT-lər qanun qarşısında cavab verməlidir.

*İnam HACIYEV*

# Seçkilər insan hüquqları və mənəviyyat məsələsi haqqında

***Azərbaycan xalqı özünün təşəkkülü və formalaşmasında qədim tarixə malik, bütün digər xalqlar kimi, əxlaq və mənəvi normalarını müqəddəs yazılardan, folklordan, qəhrəmanlıq eposlarından və xalq müdrikliyindən götürmüşdür. Bir çox hallarda, məhz bu amil Azərbaycan millətinə mürəkkəb geosiyasi dəyişikliklərə rəğmən, öz mənliyini qoruyub-saxlamağa imkan vermiş və milli dövlətçiliyin sabit inkişafına kömək etmişdir.***

Beləliklə:

Nə unudulmamalıdır:

Qurani-Kərim

Surə 4, ayə 148 - “Allah pis sözün açıq, ucadan deyilməsini sevməz...”

Surə 6, ayə 152 - “Söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun...”

Surə 49, ayə 11- “...Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan (Allah yanında) daha yaxşı olsunlar... Bir-birinizə tənə etməyin, eyib tutmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın...”

Məhəmməd Peyğəmbərin (s.) hədislərindən: “...Sizin qanınız, əmlakınız və şərəfiniz toxunulmazdır”.

Azərbaycan xalqının tarixi yaddaşında mənəvi dəyərlər və əxlaqi prinsiplər çoxsaylı atalar sözləri və zərb-məsəllər şəklində əks olunmuşdur.

Onlardan bəziləri:

* Hörmət isləyirsən - təhqirdən başlama.

* Qılınc yarası sağalar, söz yarası sağalmaz,

* Acı dil bütün dünyanı xarabalığa çevirər.

* Yalanın ömrü qısa olar.

Ekspert Komissiyası hesab edir ki:

* qara piar Azərbaycan KİV-in və bütövlükdə, əsas prinsipləri doğruçuluq, obyektivlik, peşəkar etika olan milli jurnalistikanın demokratik təkamülünə maneçilik törədir;

- qara piardan istifadə demokratiya ideallarına, insan haqlarına, şəxsiyyətin şərəf və ləyaqətinə hörmət normalarına ziddir;

- qara piar Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı maddələrinin pozulması kimi qiymətləndirilməlidir (Ekspert Komissiyası qara piar təcrübəsindən istifadə edilməsinə insan hüquqları və əsas azadlıqların qorunması sahəsində beynəlxalq hüquq normalarının, eləcə də, Azərbaycan qanunvericiliyinin, xüsusilə, AR Cinayət Məcəlləsinin 147-ci “Böhtan” və 148-ci “Təhqir” Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü “şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi” maddələrinin kobud şəkildə pozulması kimi baxır);

mad. 46 - “Şərəf və ləyaqətin müdafiəsi hüququ”; mad. 56 - “Seçki hüququ”; mad. 63 “Təqsirsizlik prezumpsiyası”; mad. 71 - “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı”;

- qara piar Azərbaycan xalqının tarixən yaranmış əxlaqi-etik normalarına təhlükədir.

Robert Dahl seçki hüququ və mənəviyyat məsələsinə dair aşağıdakı tövsiyələri verir:

“X Sistemi sadələşdirin.

X Yeniliklərdən qorxmayın.

X Vətəndaşların ictimai həyatda daha fəal iştirakı yönünə üstünlük verin.

X İctimai həyatın bütün əsas subyektlərinin legitimliyinə və qarşılıqlı anlaşmasına nail olun,

X Seçicilərin nüfuzunu maksimum gücləndirməyə çalışın.

X Lakin bu zaman, dəqiq formullaşdırılmış proqramları olan siyasi partiyaların ziyanına olaraq, tarazlığın pozulmasına imkan verməyin.

Bu cür çoxsaylı seçki sisteminin mövcudluğu faktının özü aşağıdakı nəticələrə gəlməyə imkan verir:

birincisi, əgər demokratik ölkədə mövcud olan seçki sistemi onun vətəndaşlarının tələbatlarına cavab vermirsə, onlar həmin sistemi başqası ilə əvəz edə bilərlər;

ikincisi, seçki sistemi mövcud ölkənin tarixi, ənənəvi, mədəni və sair xüsusiyyətlərinə uyğun olaraq qurulur;

üçüncüsü, ölkə yeni seçki sistemini qəbul etmək (və ya köhnəsinə toxunmamaq) məsələsini həll etməzdən öncə, bütün alternativ variantlar təcrübəli mütəxəssislərin köməyilə diqqətlə təhlil edilməlidir”.

Qərb tədqiqatçıları Maykl Koppec və Volfranq Rayniken azad seçkilər keçirən ölkələrdə dörd əsas təsisatın mövcudluğunu göstərirlər:

1. Azad və ədalətli seçkilər;

2. Öz fikrini sərbəst ifadə etmə;

3. Alternativ və müstəqil informasiya vasitələri;

4. Assosiasiyaların müstəqilliyi - hər birinin haqqında fikir yürütməyə imkan vermişdir.

Seçkilər əxlaqi dəyərlərə uyğun keçirilməsi üçün Beynəlxalq Elmi Şuranın Ekspert Komissiyasının üzvləri aşağıdakı tövsiyələri vermişdir:

Azərbaycan Respublikasının Avropa məkanına inteqrasiyası yolunda ədalətli, şəffaf, demokratik parlament seçkilərinin keçirilməsinin mühüm addım olduğunu, eləcə də, bir çox hallarda Azərbaycan Respublikasının seçki təcrübəsində vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olan əvvəlki mənfi halları nəzərə alaraq, seçkilərinin səmərəliliyinin təmin olunması üçün aşağıdakı tövsiyələri vacib hesab edirik:

* bütün yerli məntəqə - seçki komissiyalarının düzgün fəaliyyəti üçün real şəraitin təmin olunması;

* yerli seçki komissiyalarının eyni bir dairədən seçilən deputatlığa namizəddən bu və ya digər vəzifə asılılığında olan vətəndaşlar hesabına formalaşdırılması hallarının qarşısının alınması;

* ölkənin bütün vətəndaşlarının şəxsiyyət vəsiqələri və seçici vəsiqələri ilə təmin olunması üçün təxirəsalınmaz tədbirlər görülməsi;

* seçici siyahılarının dəqiqləşdirilməsi üçün təxirəsalınmaz tədbirlər görülməsi;

* səhhətinə görə seçkilərdə iştirak edə bilməyənlərin səs vermələri üçün şərait yaradılması;

* səsvermə günü seçicilərin barmaqlarının mürəkkəblə nişanlanması proseduru keçirilməli və bu tədbirin obyektivliyinin təmin olunması;

* büdcəsinin 30 faizdən çoxu xarici maliyyə yardımları hesabına formalaşan yerli qeyri-hokumət təşkilatlarının parlament seçkilərinin monitorinqinə buraxılması məqsədi ilə seçki qanunvericiliyinə düzəlişlərin edilməsi məsələsinə baxılmalı;

* deputatlığa namizəd kimi qeydə alınan bütün şəxslərin seçkilərdə iştirakı üçün şərait yaradılmalı;

* seçki qanunvericiliyini və Prezidentin Sərəncamını pozaraq, seçki prosesinə müdaxilə edən bütün şəxslər məsuliyyətə cəlb olunmalı;

* deputatlığa namizədliyi irəli sürülmüş bütün şəxslərin seçkiqabağı təşviqatı üçün ədalətli və bərabər şəraitin təmin olunması məqsədilə aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1) deputatlığa namizədlərin plakatları üçün reklam lövhələrinin sayı və keyfiyyəti yaxşılaşdırılmalı;

2) namizədlərin öz seçiciləri ilə görüşləri təmin edilməli və güc strukturları tərəfindən bu prosesə müdaxiləyə yol verilməməlidir;

3) deputatlığa namizədlərə qarşı təhqiredici xarakterli plakat və şüarların yayılmasına yol verilməməli;

4) təşviqat sabotajının, o cümlədən, rəqiblərin plakatlarının cırılmasının qarşısı alınmalı.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev seçki hüququ və seçki sisteminin əxlaqiliyi haqqında demişdir: “Seçkilərin demokratik şəkildə keçirilməsi Azərbaycanın qarşısında yeni imkanlar açır, yeni üfüqlər açır. Biz bundan sonra da demokratikləşmə prosesinə böyük diqqət göstərəcəyik. Azərbaycanda siyasi proseslərin sürətlənməsi, demokratik inkişafın möhkəmlənməsi ölkənin hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir.

Mən dəfələrlə qeyd etmişdim, bu gün də demək istəyirəm ki, bizim gözəl iqtisadi nailiyyətlərimiz, uğurlarımız, gələcək iqtisadi perspektivlərimiz, bilavasitə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, azad cəmiyyətin yaranması bizim başlıca vəzifəmizdir”.

Azərbaycan xalqı özünün təşəkkülü və formalaşmasında qədim tarixə malik, bütün digər xalqlar kimi, əxlaq və mənəvi normalarını müqəddəs yazılardan, folklordan, qəhrəmanlıq eposlarından və xalq müdrikliyindən götürmüşdür. Bir çox hallarda, məhz bu amil Azərbaycan millətinə mürəkkəb geosiyasi dəyişikliklərə rəğmən, öz mənliyini qoruyub-saxlamağa imkan vermiş və milli dövlətçiliyin sabit inkişafına kömək etmişdir

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 mart


## Təhsil işçiləri parlaq gələcəyə səs verəcəklər







***Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qurban Abbasov adına Mədəniyyət Evində rayonun təhsil işçiləri ilə görüş keçirib. Görüşdə 330 seçici iştirak edib.***

Tədbiri YAP Suraxanı rayon şöbəsinin sədri Vüqar Seyidov açaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin müsbət nəticələrini qeyd edərək, qədirbilən Azərbaycan xalqının Prezidentimizlə qürur duyduğunu bildirib. Qeyd edib ki, Cənab İlham Əliyev ötən dövr ərzində Ulu Öndər Heydər Əliyev siyasətini məharətlə davam etdirərək, dövlət müstəqilliyimizi daha da möhkəmləndirdi, ictimai-siyasi sabitliyimizin qarantı oldu, sarsılmaz xalq-iqtidar birliyi yaratdı və Azərbaycanı regionun lider dövlətinə və dünyada sayılıb-seçilən, söz sahibi olan ölkəyə çevirdi.

O cümlədən, təhsil sferasında aparılan uğurlu islahatlara nəzər salan rayon təşkilatı sədri təhsil işçilərini Cənab İlham Əliyevin namizədiyini dəstəkləyərək, Ona səs verməyə çağırdı.

Görüşdə Milli Məclisin üzvləri Ağacan Abıyev, Sevinc Fətəliyeva, beynəlxalq dərəcəli hakim Hicran Şərifov, vəkil Loğman Abdullayev və təhsil işçilərindən Fatimə Zülfiqarova, Afət Heydərova və Xədicə Səmədova çıxış edərək, ölkəmizdə hər sahə üzrə konkret proqramların mövcudluğu, onların xalq tərəfindən dəstəklənməsi və uğurlu icrasının ölkənin hərtərəfli inkişafını sürətləndirdiyini bildiriblər. Qeyd olunub ki, xalq bir daha Prezident İlham Əliyevlə, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası ilə bir olduğunu nümayiş etdirərək, öz gələcəyinə səs verəcəkdir. Bu günümüzün uğurları fonunda, bir daha qətiyyətlə deyirik ki, Cənab İlham Əliyevin, Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də qələbəsi şübhəsizdir.

Sıxış edənlər daha qüdrətli və dinamik inkişaf edən Azərbaycan naminə təhsil işçilərini Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

***Zümrüd BAYRAMOVA***




## Neftçalalıların şüarı dəyişməzdir - "İLHAMLA İRƏLİ"

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının Neftçala rayon şöbəsinin "İlhamla irəli" təşviqat qrupu təbliğat-təşviqat kampaniyası çərçivəsində zirvə görüşü keçirib.***




Görüşdə millət vəkilləri Arif Rəhimzadə, Fəzail Ağamalı, "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev iştirak edib.

Zirvə görüşünü giriş sözü ilə açan YAP Neftçala rayon təşkilatının sədri Anar Cəfərov rayon seçicilərinin prezidentliyə vahid namizədi Cənab İlham Əliyev olduğunu qeyd edib. Bildirib ki, bu günə qədər rayonumuzun ərazisində-kəndlərdə və qəsəbələrdə keçirilən təşviqat görüşlərində seçicilər İlham Əliyevə səs verəcəklərini bildirirlər.



Tədbirdə Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək bildirib ki, xalqın ölkə Prezidentinə inamı, etimadı və sevgisi böyükdür: "Siz bu sevgini səsvermə prosesində fəal iştirakınızla, dəstəyinizlə bir daha təsdiqləyəcəksiniz. Azərbaycanı işıqlı gələcəyə doğru aparan Cənab İlham Əliyevin gördüyü işlər və həyata keçirdiyi uğurlu inkişaf proqramı danılmazdır".

Millət vəkili Fəzail Ağamalı çıxış edərək, YAP-ın namizədi Cənab İlham Əliyevin fəaliyyətindən və ölkəmizin inkişafından ətraflı bəhs edib.



"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev Neftçala sakinləri qarşısında çıxış edərək, seçki günü seçiciləri hamılıqla məntəqələrə gələrək, ölkəmizin inkişafının davam etməsi naminə Cənab İlham Əliyevə səs verməyə səsləyib: "YAP-ın namizədi Cənab İlham Əliyevin fəaliyyəti Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, ölkədə aparılan quruculuq-abadlıq işlərində özünü göstərir. Neftçalalı seçicilər xalqımızı uğurlu sabahlara aparan Ulu Öndər Heydər Əliyev siyasətinin davamlı olmasını istəyirlərsə, YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməlidirlər. İnanırıq ki, növbəti 7 ildə Azərbaycan Cənab İlham Əliyevin rəhbərliyi ilə qələbələrini davam etdirəcək və qüdrətli dövlət olaraq yeni nailiyyətlərə imza atacaq".



Zirvə görüşü respublikamızın tanınmış incəsənət adamlarının ifalarında səslənən musiqi nömrələri ilə davam edib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**